*Əlixan Musayev*

# MÜSƏLMANLARIN BİRLİYİNƏ ÇAĞIRIŞ



**Redaksiya heyəti:**

Əlixan Musayev

M. Qarayev

A. Salehli

E. Rüstəmov

**“*İnsanları* Allaha dəvət edən, yaxşı iş görən və: “Həqiqətən, mən müsəlmanam!”– deyən kəsdən daha gözəl söz deyən kim ola bilər?!”**

*Quran, “Fussilət” surəsi, 33-cü ayə*

بسم الله الرحمن الرحيم

**Mərhəmətli, Rəhmli Allahın adı ilə!**

# MÜQƏDDİMƏ

Bu kiçik həcmli risaləni yazmaqda məqsədimiz müsəlmanlar arasında vəhdət yaratmaq, onları peyğəmbərlər عليهم السلام və onların ardıcılları kimi bir camaat olmağa təşviq etməkdir.

Məlumdur ki, Uca Allah peyğəmbərlərin hamısına عليهم السلام, o cümlədən də sonuncu peyğəmbərə[1] və onun ardıcıllarına müsəlman olmağı əmr etmiş, onlar da bu əmri yerinə yetirərək özlərinə sadəcə "müsəlman" deməklə kifayətlənmişlər. Bu xüsusda Quranda belə buyurulur:

**"Allah əvvəl *nazil etdiyi kitablarda da, Quranda* da sizi <u>müsəlman</u> adlandırdı."**[2];

**"Mənə <u>müsəlman</u> olmaq və Quran oxumaq əmr olunub!"**[3];

**"Həqiqətən, mən müsəlmanam!"– deyən kəsdən daha gözəl söz deyən kim ola bilər?!"**[4]

Müsəlman olmaq Allaha təslim olmaq, yəni Allahın Tək İlah olduğuna etiqad etmək və ibadətdə Ona heç nəyi şərik qoşmamaqdır. Peyğəmbərlərin hamısının عليهم السلام dəvətinin qayəsi də məhz bu olmuşdur:

---

[1] **"Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyil. Lakin o, Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur".** ("əl-Əhzab" surəsi, 40).

[2] "əl-Həcc" surəsi, 78.

[3] "ən-Nəml" surəsi, 91-92.

[4] "Fussilət" surəsi, 33.

**"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan[1] uzaq olun"–** *deyə* **peyğəmbər göndərmişik."[2];**

"(Ey Muhəmməd!) **Səndən əvvəl elə bir peyğəmbər göndərməmişik ki, ona: "Məndən başqa** *ibadətə layiq* **ilah yoxdur, Mənə ibadət edin!"– deyə vəhy etməyək."[3]**

Deməl, müsəlman olmaq üçün Allahın Tək İlah olduğuna etiqad etmək və ibadətdə Ona heç nəyi şərik qoşmamaq gərəkdir. Məhz tövhid sayəsində yer üzündə əmin-amanlıq və dindarlar arasında birlik yarana bilər. Bu xüsusda Uca Allah Muhəmməd peyğəmbərə ﷺ belə buyurmuşdur: **"De: "Ey Kitab əhli, bizimlə sizin aranızda olan eyni bir kəlməyə** *təraf* **gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək". Əgər onlar yenə üz çevirsələr, deyin: "Şahid olun ki, biz müsəlmanlarıq!"[4]**

Bu ayədən aydın başa düşülür ki, müsəlman olmaq üçün Allahın Tək İlah olduğuna etiqad etmək və ibadətdə Ona heç nəyi şərik qoşmamaq, yəni tövhid əhli olmaq vacibdir.

Muhəmməd peyğəmbərin ﷺ səhabələri və onların yolunu tutub gedən müsəlmanlar məhz tövhid əhli olduqlarına görə Allah onlardan razıdır. Bu xüsusda Quranda belə buyurulur: **"***Dində* **hamını ötüb keçən ilk mühacirlərə və ənsara** (İslamı ilk əvvəl qəbul etmiş səhabələrə)**, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da** *Allahdan* **razıdırlar.** *Allah* **onlar üçün** *ağacları və*

[1] Tağut – Allahdan başqa ibadət edilən hər kəs və hər şey.
[2] "ən-Nəhl" surəsi, 36.
[3] "əl-Ənbiya" surəsi, 25.
[4] "Ali-İmran" surəsi, 64.

***qəsrləri*** **altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər hazırlamışdır. Bu, böyük uğurdur."**[1]

Allaha şərik qoşan və müsəlmanların yolundan kənara çıxan azğınlar isə əlbəttə ki, cəhənnəmlik olacaqlar: **"Hər kim özünə doğru yol bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxıb möminlərin yolundan ayrı bir yolla gedərsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmə giriftar edərik. Ora nə pis dönüş yeridir."**[2]

Hədisdə Peyğəmbər ﷺ belə demişdir: **"Mənim ümmətim yetmiş üç firqəyə bölünəcək, onların birindən başqa hamısı Cəhənnəmə girəcək".** Səhabələr رضي الله عنهم soruşdular: "Kimlərdir Cənnətlik olanlar, ya Rəsulullah?" Peyğəmbər ﷺ dedi: **"Onlar mənim və səhabələrimin yolunu tutub gedənlərdir."**[3]

Bu dəlillərdən aydın başa düşülür ki, səhabələr رضي الله عنهم bir camaat olmuş və firqələrə bölünməmişlər.

Elə isə, gəlin biz də onlar kimi bir camaat olub insanları Allahın haqq dininə dəvət edək, daim yaxşı işlər görək və ad olaraq özümüzə "müsəlman" deməklə kifayətlənək.

Hamımız üçün Rəbbimizə dua edib deyirik: **"Allahım, bizim qəlblərimiz arasında ülfət yarat, aramızdakı münasibəti düzəlt, bizi əmin-amanlıq yollarına yönəlt, bizi zülmətlərdən nura çıxart və bizi həm aşkarda, həm də gizlində olan yaramaz əməllərdən uzaq et!"**[4]

---

[1] "ət-Tovbə" surəsi, 100.

[2] "ən-Nisa" surəsi, 115.

[3] "Sunən ət-Tirmizi", 2641; "Səhih əl-Cami", 5343.

[4] "Sunən Əbu Davud", 969.

# "İSLAM" KƏLMƏSİNİN MƏNASI

"İslam" kəlməsi ərəbcədən tərcümədə *tabe olmaq, boyun əymək, itaət etmək, sülh, əmin-amanlıq və salamatlıq* kimi mənaları ehtiva edir.

Şəri mənada isə, Allahın tək İlah olduğunu qəbul edərək Ona boyun əymək və buyuruqlarını yerinə yetirmək, üstəlik, Ona şərik qoşmaqdan və şərik qoşanlardan uzaq olmaqdır.[1] Bu xüsusda Quranda belə buyurulur: **"De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur."[2];**

**"Əgər onlar Allaha, Peyğəmbərə və ona nazil olana iman gətirsəydilər, *müşrikləri* özlərinə dost tutmazdılar."[3]**

Səhih hədisdə xəbər verilir ki, Peyğəmbərimiz ﷺ: "İslam nədir?" sualına belə cavab vermişdir: **"İslam odur ki, Allahdan başqa *ibadətə layiq* məbudun olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna şəhadət gətirəsən, namaz qılasan, zəkat verəsən, ramazan ayını oruc tutasan və imkanın olduğu təqdirdə Kəbəni ziyarət edəsən."[4]**

Digər hədisdə Peyğəmbər ﷺ demişdir: **"İslam beş *dayaq* üzərində qurulmuşdur: Allahdan başqa *ibadətə layiq* məbudun olmadığına və Muhəmmədin ﷺ Allahın rəsulu olduğuna şəhadət vermək, *doğru-düzgün* namaz qılmaq, zəkat vermək, ramazan orucunu tutmaq və Allahın evinə həcc etmək."[5]**

---

[1] "İmanın əsasları", 1/255.

[2] "əl-Ənam" surəsi, 162-163.

[3] "əl-Maidə" surəsi, 81.

[4] "Səhih Muslim", 8.

[5] "Səhih əl-Buxari", 8; "Səhih Muslim", 16.

Hədisdə "İslam" deyildikdə, haqq din qəsd edilir. Necə ki, "Ali-İmran" surəsinin 19-cu ayəsində deyilir: **"Həqiqətən, Allah yanında *haqq* din, İslamdır!"** Belə ki, peyğəmbərlərin hamısının ﷷ dini İslam olub. Yəni Allahın tək ilah olduğunu qəbul etmək və yalnız Ona itaət etmək, habelə, Allaha şərik qoşmaqdan və Ona şərik qoşanlardan uzaq olmaq. Onların fərqli cəhətləri isə gətirdikləri şəriət qayda-qanunları olub. Bu xüsusda Peyğəmbər ﷺ belə demişdir: **"Peyğəmbərlər ata bir, ana ayrı övladlardır. Anaları ayrı olsa da, dinləri birdir."**[1]

Yəni peyğəmbərlərin ﷷ şəriət qanunlarında bəzi fərqlər olsa da, tövhid – Allahın Tək ilah olduğuna etiqad etmək və Ona şərik qoşmamaq, üstəlik, bu əqidəni insanlara təbliğ etmək xüsusunda hamısının dini eyni olub, yəni onlar hamısı müsəlman olublar. Buna aşağıdakı ayələri dəlil göstərmək olar:

**"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun"–** ***deyə,*** **peyğəmbər göndərmişik.** ***O ümmətlərdən*** **kimisini Allah doğru yola yönəltmiş, kimisinə də azmaq nəsib etmişdir. Yer üzündə gəzib dolaşın və görün** ***haqqı*** **yalan sayanların aqibəti necə oldu!"**[2]**;**

"(Ey Muhəmməd!) **Səndən əvvəl elə bir peyğəmbər göndərməmişik ki, ona: "Məndən başqa** ***ibadətə layiq*** **ilah yoxdur, Mənə ibadət edin!"– deyə vəhy etməyək."**[3]**;**

**"*Allah* Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: "Dinə doğru-düzgün etiqad edin və dində bölünüb firqə-firqə olmayın!" Sənin dəvət etdiyin** ***tövhid*** **müşriklərə ağır gəldi".**[4]

---

[1] "Səhih əl-Buxari", 3443.

[2] "ən-Nəhl" surəsi, 36.

[3] "əl-Ənbiya" surəsi, 25.

[4] "əş-Şura" surəsi, 13.

Qeyd etdiyimiz bu dəlillərə əsasən deyə bilərik ki, hər bir insan peyğəmbərlərin عليهم السلام təbliğ etdiyi tövhidə tabe olmalıdır ki, onlar kimi əsl müsəlman sayılsın.

Peyğəmbərlər عليهم السلام öz ümmətlərinə kəlmələrin ən əzəmətlisi və mütləq şəkildə ən möhtəşəmi sayılan tövhid kəlməsini, yəni "la ilahə illəllah"ı təbliğ etmişlər. Bu kəlmənin mənasını özündə əks etdirən əqidədən başqa heç bir şey tövhid əqidəsi sayıla bilməz. Bu kəlmə iki təməl üzərində dayanır – inkar və isbat. Kəlmənin əvvəlindəki "la ilahə (ilah yoxdur)" ümumi inkar, onun sonundakı "illəllah (Allahdan başqa)" isə xüsusi isbatdır. Bu kəlmənin əvvəlindəki ümumi inkar olan "la ilahə" Allahdan başqa ibadət edilən ilahların hamısını inkar edir, "illəllah" kəlməsi isə ibadətin bütünlüklə Tək Allaha məxsus olduğunu isbat edir. "La ilahə" sözündəki "ilah" kəlməsi "məbud" deməkdir. Deməli, sən "la ilahə", yəni "la məbudə" (məbud yoxdur) dediyində, Allahdan başqa ibadət edilən qondarma ilahların hamısını inkar edirsən. Bu cümlədəki "la" inkar ədatı qondarma ilahların hamısına aid edilir. Demək, "la ilahə illəllah" *Allahdan başqa ibadətə layiq məbud yoxdur* deməkdir. Odur ki, Allahdan başqa mövcud olan qondarma ilahların hamısı – nə olursa-olsun, kim olursa-olsun, batil sayılır. Bundan aydın olur ki, ibadət yalnız Allahın haqqıdır və heç kəs, heç nə bu haqqa şərik ola bilməz. Elə isə, "la ilahə illəllah" kəlməsini həqiqi mənada sidq-ürəkdən deyən adam ibadətdən sayılan heç bir əməli Allahdan qeyrisinə yönəltməməlidir. Beləsi istədiyini yalnız Allahdan istəməli, yalnız Allahdan mədəd və yardım diləməli, bütün ibadətlərini birbaşa Allaha yönəltməlidir. Birisi dili ilə "la ilahə illəllah" deyib, sonra da Allahdan qeyrisinə dua edərsə, Allahdan qeyrisindən kömək diləyərsə, Allahdan başqasına sığınarsa və digər hər hansı

ibadəti Allahdan qeyrisinə yönəldərsə, bütün əməllərini puç etmiş olar. Bu xüsusda Uca Allah belə buyurur: «**Sənə və səndən əvvəlki** ***peyğəmbərlərə*** **belə vəhy olunmuşdur: “Əgər** ***Allaha*** **şərik qoşsan, əməlin puç olar və mütləq ziyana uğrayanlardan olarsan.”**»[1]

Demək, “la ilahə illəllah” kəlməsini deyən adam Allaha şərik qoşduğu halda bu kəlməni yüzlərcə, minlərcə dəfə təkrar etsə belə, bu, ona heç bir fayda verməz. İnsana fayda verən yalnız odur ki, bu kəlmənin məğzini təkAllahlıq etiqadı ilə səmimi-qəlbdən yalnız Allaha yönəltmiş olsun. Dildə bu kəlməni deyib, əməli ilə onu puç etmək isə onu deyən adama heç bir fayda verməyəcək.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, əsrlər boyu insanların bir çoxu Allahın göndərdiyi peyğəmbərlərin عليهم السلام dəvətini qəbul etməmiş və onları yalançı saymışlar. Bu haqda Uca Allah Öz peyğəmbərinə ﷺ belə buyurur: **“Əgər onlar səni yalançı hesab etsələr,** ***bil ki,*** **səndən əvvəl açıq-aydın dəlillər, səhifələr və nur saçan kitablar gətirmiş elçiləri də yalançı hesab etmişdilər.”**[2]

Elə isə, əziz müsəlmanlar, öyrənilməsi vacib olan tövhidi öyrənməli və öyrəndiklərimizi doğru-düzgün yerinə yetirməliyik ki, peyğəmbərlər kimi əsl müsəlman sayılaq.

Quranda peyğəmbərlərin عليهم السلام müsəlman olmasını təsdiqləyən çoxlu ayələr var. O ayələrdən bəziləri bunlardır:

Bir zaman Nuh peyğəmbər عليه السلام öz qövmünə belə demişdir: **“Mənə <u>müsəlman</u> olmaq əmr edilmişdir.”**[3]

---

[1] “əz-Zumər” surəsi, 65.

[2] “Ali-İmran” surəsi, 184.

[3] “Yunus” surəsi, 72.

Başqa bir ayədə Uca Allah İbrahim peyğəmbər عليه السلام barədə belə buyurur: **“Bir zaman Rəbbi *İbrahimə*: “Müsəlman ol!”– dedikdə, o: “Aləmlərin Rəbbinə təslim oldum!”– demişdi. İbrahim də, Yəqub da bunu övladlarına vəsiyyət etdilər: “Ey övladlarım! Həqiqətən, Allah bu dini sizin üçün seçmişdir. Siz də ancaq müsəlman olaraq dünyadan köçün!”**[1]

Bu ayədən aydın başa düşülür ki, İbrahim عليه السلام və oğlanları İshaq عليه السلام və İsmail عليه السلام, habelə Yəqub عليه السلام və onun Yusuf عليه السلام da daxil on iki oğlu müsəlman olmuşlar.

Yusuf peyğəmbər عليه السلام Allaha belə dua etmişdir: **“Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim Himayədarımsan. Mənim canımı müsəlman olduğum halda al və məni əməlisalehlərə qovuşdur.”**[2]

Musa peyğəmbər عليه السلام öz qövmünə belə demişdir: **“Ey qövmüm, əgər Allaha iman gətirib müsəlman olmusunuzsa, yalnız Ona təvəkkül edin!” Onlar dedilər: “Biz ancaq Allaha təvəkkül edirik.”**[3]

Süleyman peyğəmbər عليه السلام günəşə ibadət edən Səba qövmünün hökmdarına yazdığı məktubda belə buyurmuşdur: **“Mənə qarşı təkəbbür göstərməyin və yanıma müsəlman olaraq gəlin!”**[4]

Öz həvarilərinə xitab edən İsa peyğəmbər عليه السلام: «**“Allah yolunda kim mənə yardımçı olacaq?”– dedikdə, həvarilər: “Bizik Allahın *dininin* yardımçıları! Biz Allaha iman gətirdik. Sən də şahid ol ki, biz müsəlmanıq!”** dedilər»[5].

---

[1] “əl-Bəqərə” surəsi, 131-132.
[2] “Yusuf” surəsi, 101.
[3] “Yunus” surəsi, 84-85.
[4] “ən-Nəml” surəsi, 31.
[5] “Ali-İmran” surəsi, 52.

Muhəmməd peyğəmbərə ﷺ də belə buyurulmuşdur: ***"De:* "Mənə bu şəhərin** (Məkkənin) **Rəbbinə ibadət etmək əmr edilib. O şəhər ki,** ***Rəbbim*** **onu toxunulmaz buyurmuşdur. Hər şey yalnız Onundur. Mənə <u>müsəlman</u> olmaq və Quran oxumaq əmr olunub!"[1];**

**"Peyğəmbər sizə, siz də insanlara şahid olasınız deyə, Allah əvvəl** ***nazil etdiyi kitablarda da, Quranda*** **da sizi <u>müsəlman</u> adlandırdı. Elə isə namaz qılın, zəkat verin və Allaha möhkəm sarılın. O, sizin Himayədarınızdır. O, nə gözəl Himayədar, nə gözəl Yardımçıdır!"[2]**

Bu ayə dəlildir ki, Uca Allah göndərdiyi hər bir peyğəmbərə və onun qövmünə müsəlman olmağı əmr etmişdir.

Əgər insanların hamısı: "Mən müsəlmanam!"– deməklə kifayətlənsə və Allahın buyurduqlarını yerinə yetirib, qadağan etdiklərindən çəkinməklə Allaha itaət etsələr, yer üzündə hər zaman sülh və əmin-amanlıq olar. Quranda əsl müsəlmanlar belə tərif olunur: ***"İnsanları*** **Allaha tərəf çağıran, yaxşı iş görən və: "Həqiqətən, mən <u>müsəlmanam</u>!"– deyən kəsdən daha gözəl söz deyən kim ola bilər?!"[3]**

Qiyamət günü də yalnız əsl müsəlmanlar cənnətlik olacaqlar. Quranda xəbər verilir ki, o gün Uca Allah müsəlmanlara belə buyuracaq: **"Ey qullarım, bu gün sizə qorxu yoxdur və siz heç kədərlənməyəcəksiniz. Siz ayələrimizə iman gətirib <u>müsəlman</u> olmusunuz. Siz də, zövcələriniz də fərəhlə Cənnətə daxil olun!"[4]**

---

[1] "ən-Nəml" surəsi, 91-92.
[2] "əl-Həcc" surəsi, 78.
[3] "Fussilət" surəsi, 33.
[4] "əz-Zuxruf" surəsi, 68-70.

Yuxarıda sadaladığımız ayələrdən aydın başa düşülür ki, peyğəmbərlər ﷺ və onların davamçıları müsəlman olmuş, özlərinə başqa adlar qoymamışlar. Elə isə, biz də onlar kimi: “Mən müsəlmanam”– deməklə kifayətlənməli və özümüzə başqa adlar qoymamalıyıq.

Doğma Azərbaycanımızın dahi şairi Nizami Gəncəvi ﷺ gözəl şeir parçasında belə demişdir:

*Boşla, nə gərəkdir atəşə səcdə,*
*Cəhənnəmi tərk et, bir bax Cənnətə!*
*Seyr et tovuzlartək bu gözəl bağı,*
*Tərk et pərvanətək o odlu dağı.*
*Atəşpərəst olma, orda tüstü var,*
*Oda arxalanan Nəmrud sayılar.*
*Bu yaxşı deyil ki, odda qalmısan,*
*Oddan qurtarmaqçün sən ol* ***müsəlman****.*[1]

[1] Yəni, atəşi və atəşpərəstliyi tərk et.

# QURANDA VƏSF EDİLƏN MÜSƏLMAN

Əziz müsəlmanlar! Əgər biz Peyğəmbərimizin ﷺ dövründəki kimi mehriban bir toplum olmaq istəyiriksə, onları birləşdirən İslam dinini biz də onların yaşadığı kimi yaşamalıyıq. Yəni Quranda və mötəbər hədislərdə buyurulanları yerinə yetirməli və qadağalardan çəkinməli, habelə ayə və hədisləri səhabələrin رضي الله عنهم başa düşdüyü kimi qəbul etməli, onlardan sonra gəlib-getmiş alimlərin yekdil rəyini (icmanın və ya cumhurun rəyini)[1] fərdi rəylərdən üstün saymalı və müsəlmanların birliyini dağıdan hər bir şərin qarşısını almaq üçün əlimizdən gələni etməliyik. Əks halda, böyük günah qazanmış olarıq. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Dində bidət[2] edənə və bidətçiyə dəstək verənə, Allah lənət eləsin!"[3]**

Əgər bir adam özü bidət etməklə yanaşı başqalarını da o bidətə dəvət edərsə, onların qazandıqları günah qədər günah qazanar. Bu xüsusda Quranda belə buyurulur: **"Qoy onlar Qiyamət günü öz günahlarının hamısını və nadanlıqları üzündən azdırdıqları kəslərin günahlarının bir qismini daşısınlar. Bax gör, daşıyacaqları yük necə də pisdir!"[4]**

Hədisdə Peyğəmbər ﷺ belə demişdir: **"Kim İslam dininə yenilik gətirsə, *insanları buna təhrik və ya təşviq etsə,* ona bunun günahı və ona əməl edənlərin günahı qədər günah yazılar."[5]**

---

[1] İcma, alimlərin hamısının, cumhur isə alimlərin əksəriyyətinin yekdil rəyi deməkdir.

[2] Bidət – sonradan din adı ilə İslam dininə əlavə edilmiş batil əməl.

[3] "Səhih əl-Buxari", 1870; "Səhih Muslim", 1366.

[4] "ən-Nəhl" surəsi, 25.

[5] "Səhih Muslim", 6975.

Qeyd edək ki, bidət, İslam ümmətini parçalayan əsas amillərdən biridir. Odur ki, müsəlmanın bidətə göz yumması yolverilməzdir. Əksinə, bidəti camaata bəyan etmək hər bir elm əhlinin öhdəsinə düşən vacib əməldir. Məhz bidətlər meydana gəldikdən sonra müsəlmanlar firqələrə bölünmüşdür. Bidətin qardaşların arasını vurması xüsusunda rəvayət edilmiş ibrətamiz hədisdə Peyğəmbər ﷺ demişdir: "**Bir-birini Allah xatirinə sevən elə iki nəfər yoxdur ki, ikisindən birinin etdiyi bidət onların arasını vurmuş olmasın."**[1]

Diqqət edin! "əl-Ənam" surəsinin 153-cü ayəsində belə buyurulur: **"Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Belə ki, o yollar sizi Allahın yolundan uzaqlaşdırar".** Bu ayədə "başqa yollar" deyildikdə, Peyğəmbərin ﷺ yoluna müxalif olan yollar, yəni bidətlər nəzərdə tutulur.

Hədislərdə Peyğəmbər ﷺ bunları buyurmuşdur:

**"Mənim yolumdan çıxan kimsələr məndən deyildirlər".**[2]**;**

**"Kim bizim bu dinimizə aid olmayan bir yeniliyi ona əlavə edərsə, o yenilik rədd edilər".**[3]**;**

**"Hər kim bizim dinimizdə olmayan bir əməl edərsə, bu əməl rədd edilər".**[4]

Peyğəmbər ﷺ öz səhabələrinə رضي الله عنهم istənilən əmri və ya qadağanı bir dəfə deyər, onlar da onun əmrini dərhal yerinə yetirər, qadağan etdiyi əməldən də çəkinərdilər. O ﷺ, bidətdən uzaq durmağı onlara daim xatırladardı, halbuki, onlardan heç biri heç vaxt bilərəkdən bidətə yol verməmişdir. Peyğəmbər ﷺ

---

[1] "Musnəd İmam Əhməd", 5/71.

[2] "Səhih əl-Buxari", 5063.

[3] "Səhih əl-Buxari", 2697; "Səhih Muslim", 1718.

[4] "Səhih Muslim", 1718.

İslam ümmətinin gələcək nəsillərini bidətdən çəkindirmək üçün belə etmişdir. Bu xüsusda o ﷺ bunları demişdir:

**"Məndən əvvəl elə bir peyğəmbər olmayıb ki, ona öz ümmətini özlərinin xeyrinə olan işlərə yönəltmək, habelə, onları özlərinin zərərinə olan işlərdən çəkindirmək buyurulmasın. Bu ümmətin əvvəlinciləri xeyirə nail olacaq, axırıncılarının isə başına bəla gələcək, onlar sizin məqbul saymadığınız, şəriətə müxalif olan əməllər** (bidətlər) **edəcəklər".**[1]**;**

**"Məndən sonra yaşayanlarınız çoxlu ixtilaflar görəcəklər. Belə olduğu təqdirdə siz mənim yoluma və doğru yolda olan raşidi xəlifələrimin yoluna tabe olun. Bundan arxa dişlərinizlə möhkəm tutun.** ***Sonradan dinə əlavə edilmiş*** **yeniliklərdən çəkinin, çünki hər bir yenilik zəlalətdir".**[2]

Peyğəmbərimiz ﷺ heç bir hədisdə "gözəl bidət" deyilən bir əməl olduğunu bildirməmiş, əksinə, səhih hədisdə hər bir bidətin zəlalət olduğunu bildirmişdir. Peyğəmbər ﷺ: **"Əməllərin ən pisi** ***dinə əlavə edilən*** **yeniliklərdir. Hər bir yenilik bidətdir, hər bir bidət zəlalətdir və hər bir zəlalət Cəhənnəm oduna** ***aparan bir*** **səbəbdir"**[3] – demiş və heç bir istisnaya yol verməmişdir. Heç bir halda Peyğəmbərimiz ﷺ: "Filan gözəl bidətdən başqa bütün bidətlər zəlalətdir"– deməmişdir. Bu xüsusda Malik ibn Ənəs رحمه الله demişdir: "Kim desə ki, İslam dinində gözəl bidət var, o, Muhəmməd peyğəmbərin ﷺ Allahın dininə xəyanət etdiyini iddia etmiş sayılar. Bu haqda Quranda belə buyurulur: **"Bu gün dininizi sizin üçün kamil etdim,**

---

[1] "Səhih Muslim", 1844.

[2] "Sunən Əbu Davud", 4607; "Sunən ət-Tirmizi", 266; "Silsilə əl-Əhadis əs-Səhihə", 2735.

[3] "Sunən ən-Nəsai", 1/243; "Xutbətul-Hacə", 1/25.

**sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyəndim.”**[1]

İmam Malik ﷺ sözünə davam edib deyir: “Həmin gün hansı əməl dindən sayılırdısa, bu gün də yalnız o əməl dindən sayılır.”[2]

İmam Malik ﷺ bununla demək istəyir ki, Allah bu dini kamil şəkildə tamamladıqdan sonra kim bu kamil dində naqislik olduğunu iddia edərsə, Peyğəmbərin ﷺ dini tam şəkildə insanlara təbliğ etmədiyini iddia etmiş sayılar.

Demək, bir camaat olmaq üçün Peyğəmbərin ﷺ zamanında olduğu kimi, kamil İslam dininə sarılmaq, sonradan meydana gəlmiş yeniliklərin hamısından uzaq durmaq lazımdır.

Rəvayət edilir ki, bir gün Peyğəmbər ﷺ Abdullah ibn Məsuda رضي الله عنه: **“Ey İbn Ummu Abd**[3]**, qalx, camaata nəsihət et!”**– deyə buyurur. İbn Məsud ayağa qalxıb Allahı həmd-sənalarla təriflədikdən sonra dedi: “Ay camaat! Heç şübhəsiz ki, Allah Rəbbimizdir, İslam dinimizdir, Quran haqq yolu göstərən kitabımızdır, Kəbə qibləmizdir və (Muhəmməd peyğəmbərə ﷺ işarə edərək) bu kişi də peyğəmbərimizdir. Allah və Onun rəsulunun ﷺ razı qaldığından biz də razıyıq, nifrət etdiyinə biz də nifrət edirik”. Onda Peyğəmbər ﷺ dedi: **“İbn Ummu Abd doğru söylədi”.**[4]

Əziz müsəlmanlar! Əgər İslam ümməti bu rəvayətdə deyilənlərə haqqı ilə əməl etsə və bu yoldan kənara çıxmasa, əlbəttə ki, mehriban bir camaat olarlar.

---

[1] “əl-Maidə” surəsi, 3.

[2] “əl-İtisam”, əş-Şatibi, 1/49.

[3] Bu, Abdullah ibn Məsudun رضي الله عنه ləqəbidir.

[4] Hakim, “əl-Mustədrək”, 3/317-318; “Silsilə əl-Əhadis əs-Səhihə”, 1225.

# ALLAHDAN ƏMİN-AMANLIQ DİLƏMƏK

Hər kəsə məlumdur ki, müsəlmanlar görüşəndə də, vidalaşanda da bir-birilərinə "əssəlamu aleykum"[1] deyə dua edirlər. Belə dua edirlər ki, Allah onlara daim sülh və əmin-amanlıq içində yaşamağı nəsib etsin.

Salam vermək müsəlmanın bu həyatda salamat, axirətdə isə cənnətlik olmasına səbəb olan əsas amillərdən biridir. Bu xüsusda Peyğəmbər ﷺ belə demişdir:

**"Salamı yayın ki, salamat olasınız".[2];**

**"Canım Əlində olan *Allaha* and olsun ki, müsəlman olmayınca Cənnətə girə bilməzsiniz. Bir-birinizi sevməyincə, müsəlman ola bilməzsiniz. Salamı yayın ki, bir-birinizi sevəsiniz."[3]**

Adəm peyğəmbərdən عليه السلام Muhəmməd peyğəmbərə ﷺ qədər peyğəmbərlər عليهم السلام də belə salam vermişlər. Gəlin, bu xüsusda zikr edilən ayə və hədislərə nəzər salaq:

**"Allah Adəmi عليه السلام yaratdıqdan sonra ona belə buyurmuşdur: "Get, orada oturan mələklərə salam ver və dinlə, gör sənin salamını necə alacaqlar. Bu həm sənin salamın, həm də sənin zürriyyətinin salamıdır". Adəm onlara: "Əssəlamu aleykum!"– dedi, onlar da: "Əssəlamu aleykə və rahmətullah!"[4]– deyə cavab verdilər".[5];**

---

[1] Tərcüməsi: Sizə salam (sülh və əmin-amanlıq) olsun!

[2] "Musnəd İmam Əhməd", 4/286; "əl-Ədəb əl-Mufrad", 787.

[3] "Sunən ət-Tirmizi", 2510; "Musnəd İmam Əhməd", 1/167; "əl-Ədəb əl-Mufrad", 260.

[4] Tərcüməsi: Sənə də salam olsun və Allahın rəhməti yetişsin!

[5] "Səhih əl-Buxari", 6227; "Səhih Muslim", 2841.

**“*Mələklər İbrahimin* yanına daxil olub: “*Sənə* salam olsun!”– dedilər. *İbrahim də onlara:* “Sizə də salam olsun! Siz yad adamlara oxşayırsınız!”– dedi.”**[1]

Uca Allah Musaya عليه السلام və Haruna عليه السلام kafirlərin yanına getdikdə onlara: **“Doğru yolla gedənlərə salam olsun!”**– deməyi əmr etmişdir.[2]

İsa عليه السلام demişdir: **“Doğulduğum gün də, öləcəyim gün də, yenidən dirildiləcəyim gün də mənə salam olsun!”**[3]**;**

**“Müttəqilər pak olduqları halda, mələklər onların canını alıb deyərlər: “Sizə salam olsun! Etdiyiniz *yaxşı* əməllərə görə Cənnətə daxil olun!”**[4]**;**

**Mələklər Cənnət əhlinə deyəcəklər: “*Dünyadakı çətinliklərə* səbir etdiyinizə görə sizə salam olsun!”**[5]**;**

**“İman gətirib saleh əməllər edənlər *ağacları və qəsrləri* altından çaylar axan cənnətlərə daxil ediləcək və Rəbbinin izni ilə orada əbədi qalacaqlar. Onların orada qarşılaşarkən *bir-birinə* deyəcəkləri söz: “Salam!” olacaqdır.”**[6]

Quranda Uca Allahın Nuha عليه السلام[7], İbrahimə عليه السلام[8], Musaya və Haruna عليهما السلام[9], İlyasinə عليه السلام[10] və digər peyğəmbərlərə[11] عليهم السلام salam göndərməsi zikr edilir.

---

[1] “Hud” surəsi, 69. Həmçinin, bax: “əz-Zariyat” surəsi, 25.

[2] “Taha” surəsi, 47.

[3] “Məryəm” surəsi, 33.

[4] “ən-Nəhl” surəsi, 32.

[5] “ər-Rəd” surəsi, 24; “əl-Furqan” surəsi, 75; “əz-Zumər” surəsi, 73.

[6] “İbrahim” surəsi, 23; “Yunus” surəsi, 10; “Məryəm” surəsi, 62; “əl-Əhzab” surəsi, 44; “əl-Vaqiə” surəsi, 26.

[7] “əs-Saffat” surəsi, 79.

[8] “əs-Saffat” surəsi, 109.

[9] “əs-Saffat” surəsi, 120.

[10] “əs-Saffat” surəsi, 130.

[11] “əs-Saffat” surəsi, 181.

Hədisdə də xəbər verilir ki, bir gün Cəbrail ﷺ Peyğəmbərin ﷺ yanına gəlib dedi: **"Ey Allahın rəsulu, bax, Xədicə əlində bir qab xörək bura gəlir. Sənin yanına gəlib çatanda, ona Rəbbindən və məndən salam söylə, üstəlik, Cənnətdə onun üçün içiboş mirvaridən hazırlanmış, içində də səs-küy və yorğunluq olmayan bir evlə onu müjdələ!"**[1]

Digər bir hədisdə isə deyilir ki, bir gün Rəsulullah ﷺ zövcəsi Aişəyə رضي الله عنها: **"Ey Aişə, Cəbrail yanımdadır, sənə salam söyləyir"–** deyir, Aişə رضي الله عنها də: "Və aleyhissəlam və rəhmətullahi və bərəkatuh![2]"– deyə cavab verir.[3]

Yuxarıdakı dəlillərdən aydın olur ki, insan yaranan gündən bəri müsəlmanlar bir-birilərini salamladıqda "əssəlamu aleykum" demişlər. Biz də onlar kimi daim bir-birimizə "əssəlamu aleykum" deməliyik ki, Allah bizə də bu dünyada əmin-amanlıq içində yaşamağı, axirətdə də peyğəmbərlərlə عليهم السلام birlikdə Cənnətə daxil olmağı nəsib etsin.

Nəinki müsəlman, hətta qeyri-müsəlman belə bizə aydın şəkildə "əssəlamu aleykum" deyərsə, biz ona "və aleykumussəlam" deyə cavab verməliyik.[4] Bu xüsusda Quranda belə buyurulur: **"Sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın və ya verilən salamı olduğu kimi qaytarın!"**[5]

Səhabələr bu ayədə buyurulanı belə izah etmişlər:

---

[1] "Səhih əl-Buxari", 3820.

[2] Tərcüməsi: "Ona da Allahın salamı olsun, Onun rəhməti və bərəkəti ona yetişsin!"

[3] "Səhih əl-Buxari", 6201; "Səhih Muslim", 2247.

[4] Bax: "Silsilə əl-Əhadis əs-Səhihə", 2/328-330; 704-cü hədisin şərhi və "Şərh Riyad əs-Salihin", 1/956.

[5] "ən-Nisa" surəsi, 86.

İbn Abbas رضي الله عنهما demişdir: "Yəhudilərin, nəsranilərin və məcusilərin salamını alın. Çünki Uca Allah belə buyurur: **"Sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın və ya verilən salamı olduğu kimi qaytarın!"**[1]

Həmçinin rəvayət edilir ki, bir gün Əbu Musa əl-Əşari رضي الله عنه rahiblərdən[2] birinə məktub yazıb onu salamladı. Bəziləri ona: "O, kafir olduğu halda, sən onu salamlayırsan?"– deyə etiraz etdilər. Əbu Musa رضي الله عنه dedi: "O, öz məktubunda məni salamladığı üçün mən onun salamını aldım".[3]

Quranda həmçinin buyurulur: **"Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla ədalətlə davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah ədalətli olanları sevir."**[4]

Yəni sizinlə düşmənçilik etməyən kafir qohumlarınıza və qonşularınıza yaxşılıq etməyinizi sizə qadağan etmir.[5] Qeyri-müsəlmanın salamını almaq da ona yaxşılıq etməyə və onunla ədalətlə davranmağa aiddir.

Allahdan istəyimiz budur ki, bizə ömrümüzün sonunadək insanlarla ədalətlə davranmağı və onlara ancaq yaxşılıq etməyi nəsib etsin!

---

[1] "əl-Ədəb əl-Mufrad", 1107.

[2] Rahib – monastırda yaşayıb rahibliyə girmə mərasimindən keçərək, monastır nizamnaməsinin tələblərinə uyğun olaraq tərki-dünya həyat keçirməyi əhd etmiş şəxs.

[3] "əl-Ədəb əl-Mufrad", 1101.

[4] "əl-Mumtəhənə" surəsi, 8.

[5] "Təfsir əs-Sədi", 1/856.

# QƏLBLƏRİ BİRLƏŞDİRƏN ƏMƏLLƏR

Müsəlmanların firqələrə bölünməsinin əsas səbəblərindən biri də onların uzun müddət bir-birindən küsülü qalmalarıdır. Halbuki, Uca Allah müsəlmanlara: **"Allahdan qorxun və aranızdakı münasibəti düzəldin!"**[1]– deyə barışmağı əmr edir.

İbn Abbas ﵄ bu ayəni izah edib demişdir: "Bu, Allahın möminlərə buyurduğu əmrdir ki, Allahdan qorxub aralarındakı küsülülüyə son qoysunlar!"[2]

Bu ayədə Uca Allah müsəlmanlara aralarındakı münasibətləri düzəltməyi əmr edir.

Hədisdə isə Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Ən fəzilətli sədəqə, tərəflər arasını düzəltməkdir!"**[3]

Yenə bir hədisdə rəvayət edilir ki, bir gün Peyğəmbər ﷺ: **"Sizə namazdan, orucdan və sədəqədən daha fəzilətli bir məqam**[4] **barədə xəbər verimmi?"**– deyə soruşdu. *Səhabələr*: "Bəli!"– deyə cavab verdikdə, o, buyurdu: **"Bu, tərəflər arasını düzəltməkdir! Dostların arasını vurmaq isə dəlləklikdir.**[5]**"**[6]

Yaxşı, bəs müsəlmanlar arasında baş vermiş inciklikləri aradan qaldırıb qəlbləri bir-birinə birləşdirmək üçün nə etməliyik? Bunun yollarını İslam şəriəti artıq bizə öyrətmişdir:

---

[1] "əl-Ənfal" surəsi, 1.

[2] "əl-Ədəb əl-Mufrad", 392.

[3] Abd ibn Humeyd, "əl-Muntəxab minəl-Musnəd", 335; "Silsilə əl-Əhadis əs-Səhihə", 2639.

[4] Burada namaz, oruc və sədəqə deyildikdə, vaciblər deyil, nafilələr nəzərdə tutulur.

[5] Yəni, ülgüc saçı qırxdığı kimi, nifrət də din qardaşlığını zəiflədir.

[6] "Sunən Əbu Davud", 4919; "Sunən ət-Tirmizi", 2698; "Musnəd İmam Əhməd", 6/444; "əl-Ədəb əl-Mufrad", 391.

**Birinci addım,** biz yalnız Allaha dua etməliyik ki, müsəlmanların qəlblərini birləşdirsin. Çünki yalnız Uca Allah qəlbləri birləşdirməyə qadirdir: **"Əgər sən yer üzündə olan *var-dövlətin* hamısını onlara sərf etsəydin, onların qəlblərini birləşdirə bilməzdin. Lakin Allah onların *qəlblərini* birləşdirdi. Həqiqətən, O, qüdrətlidir, hikmət sahibidir."**[1]

Bu ayədən aydın başa düşülür ki, bir-biri ilə küsülü olan müsəlmanları yalnız Allah barışdıra bilər. Elə isə, mehriban bir camaat olmağı Allahdan istəməliyik. Bu xüsusda Peyğəmbərimiz ﷺ bizə möhtəşəm bir dua öyrədib:

(( اللَّهُمَّ أَلِّفْ بَيْنَ قُلُوبِنَا، وَأَصْلِحْ ذَاتَ بَيْنِنَا، وَاهْدِنَا سُبُلَ السَّلَامِ، وَنَجِّنَا مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ، وَجَنِّبْنَا الْفَوَاحِشَ مَا ظَهَرَ مِنْهَا وَمَا بَطَنَ ))

**"Allahım, bizim qəlblərimiz arasında ülfət yarat, aramızdakı münasibəti düzəlt, bizi əmin-amanlıq yollarına yönəlt, bizi zülmətlərdən nura çıxart və bizi, həm aşkarda, həm də gizlində olan yaramaz əməllərdən uzaq et!"**[2]

**İkinci addım,** küsülü olan və bir-birinə arxa çevirən müsəlmanlara bu əməlin nə dərəcədə təhlükəli olduğunu bildirməli, bu xüsusda varid olmuş səhih hədisləri onlara xatırlatmalıyıq:

**"Bir-birinizin eyibini axtarmayın, casusluq etməyin, bir-birinizlə rəqabət aparmayın, bir-birinizə həsəd aparmayın, bir-birinizə nifrət etməyin, bir-birinizə arxa çevirməyin. Ey Allahın qulları, qardaş olun[3];**

---

[1] "əl-Ənfal" surəsi, 63.
[2] "Sunən Əbu Davud", 969.
[3] "Səhih əl-Buxari", 6066; "Səhih Muslim", 8/10.

**"Heç bir müsəlmana üç gündən artıq müsəlman qardaşı ilə küsülü qalması, qarşı-qarşıya gəldikdə bunun ondan üz çevirməsi, onun da bundan üz çevirməsi halal deyil."[1];**

**"Müsəlman üç gündən artıq müsəlman qardaşı ilə küsülü qalmamalıdır. Əgər onunla görüşdüyü zaman ona salam versə, o da bu salamı almazsa, buna görə salamı almayan günah qazanar."[2];**

**"Onlar küsülü qaldıqca, haqdan sapmış olarlar. Əgər küsülü olduqları halda ölsələr, Cənnətdə əsla bir yerdə olmazlar."[3];**

**"Heç bir müsəlmana üç gündən artıq başqa bir müsəlmanla əlaqəni kəsmək halal olmaz. Hər kim üç gündən artıq qardaşı ilə küsülü qalar və belə halda ölərsə, Cəhənnəm oduna girər."[4];**

**"Bazar ertəsi və cümə axşamı Cənnətin qapıları açılır və Allaha heç nəyi şərik qoşmayan hər kəsin günahları bağışlanır. Yalnız mömin qardaşına nifrət bəsləyən kimsədən başqa. Onlar barədə deyilir: "Bu ikisi öz aralarındakı münasibəti düzəldənədək, onların bağışlanmasını yubadın." Peyğəmbər ﷺ bu sözü üç dəfə təkrar etdi".[5]**

Allahdan qorxan müsəlman bu hədislərdəki təhdidləri bildikdən sonra dərhal küsülü qardaşı ilə barışmağa tələsməlidir.

**Siz barışmağa tələsin! Siz qəlbləri birləşdirməyə çalışın!**

**Siz yaxşılığınızı edin! Siz salamınızı verin!**

**Siz gözəl əxlaqınızla nümunə olun!**

---

[1] "əl-Ədəb əl-Mufrad", 985.

[2] "Sunən Əbu Davud", 4913; "Səhih əl-Cami", 7775.

[3] "Musnəd İmam Əhməd", 4/20; "Silsilə əl-Əhadis əs-Səhihə", 1246.

[4] "Sunən Əbu Davud", 4914; "Səhih əl-Cami", 7659.

[5] "Səhih Muslim", 2565; "əl-Ədəb əl-Mufrad", 411.

Belə etsəniz, Allahın izni ilə aşağıda zikr edilən hədislərdəki fəzilətlərə nail olacaqsınız:

**–** Peyğəmbərlərin عليهم السلام etdiyini yerinə yetirməklə onlara bənzəmiş olacaq və böyük savab qazanacaqsınız. Əvvəlki fəsildə nəql etdiyimiz hədisdə Adəmin عليه السلام mələklərə salam verməsi, onların da bu salamı alması və Uca Allahın Adəmə عليه السلام **"Bu, həm sənin salamın, həm də sənin zürriyyətinin salamıdır"**– deyə buyurması buna dəlildir.

**–** Salam verməklə otuz savab qazanırsınız. Rəvayət edilir ki, bir gün Rəsulullah ﷺ məclisdə ikən bir nəfər gəlib: "Əssəlamu aleykum!"– dedi. Rəsulullah ﷺ buyurdu: ***"Bu adam* on savab qazandı".** Sonra başqa bir adam gəlib: "Əssəlamu aleykum və rəhmətullah!"– dedi. Rəsulullah ﷺ buyurdu: ***"Bu adam* iyirmi savab qazandı".** Sonra da başqa birisi gəlib: "Əssəlamu aleykum və rəhmətullahi və bərəkatuhu!"– dedi. Peyğəmbər ﷺ buyurdu: ***"Bu adam* otuz savab qazandı."**[1]

**–** Ən xeyirli müsəlmanlardan sayılırsınız: **"Küsülülərin ən xeyirlisi salamı birinci verib sözə başlayandır".**[2]

**–** Salamınızı mələk alır: **"Onlardan biri digərinə salam verdiyi zaman o adam onun salamını almazsa, salam verənin salamını mələk alar, salamı almayanı isə şeytan qarşılayar".**[3]

**–** Bu əməl sizin günahlarınızı silir: **"O küsülülərdən birinci barışanın ilk əvvəl barışığa gəlməsi onun *günahları* üçün kəffarə olar".**[4]

[1] "əl-Ədəb əl-Mufrad", 986.

[2] "əl-Ədəb əl-Mufrad", 985.

[3] "əl-Ədəb əl-Mufrad", 402; "Musnəd İmam Əhməd", 4/20; "Silsilə əl-Əhadis əs-Səhihə", 1246.

[4] Əvvəlki mənbə.

**Üçüncü addım,** daim günahlarımıza görə Allahdan bağışlanma diləməli və Ona tövbə etməliyik. Bu xüsusda Peyğəmbər ﷺ belə demişdir: **"Bir-birini Allah ﷻ xatirinə və ya İslam yolunda sevən elə iki nəfər yoxdur ki, ikisindən birinin etdiyi günah onların arasını vurmuş olmasın."**[1]

Hədisdən aydın olur ki, İslam dini insanları bir-birinə qardaş edir, günah işlər isə onların arasına təfriqə salır. Elə isə, Allahdan həm öz günahlarınız, həm də mömin qardaş və bacılarınızın günahları üçün bağışlanma diləyin: **"Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlblərimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"**[2]

**Dördüncü addım,** ixtilaf baş verdikdə: "Bu mənim şeyximdir, dostumdur və s." deyib təəssübkeşlik etməmək, obyektiv olub haqqın tərəfini saxlamaq lazımdır. Bu xüsusda Quranda belə buyurulur: **"Ey iman gətirənlər! Allah üçün *haqqı* qoruyan, ədalətlə şahidlik edən kimsələr olun. Bir qövmə qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır."**[3]

**Beşinci addım,** nəfsdəki kini boğmaq və xətanı bağışlamağı bacarmaqdır. Bu xüsusda Quranda belə buyurulur: **"Rəbbinizin məğfirətinə və müttəqilər**[4] **üçün hazırlanmış,**

[1] "əl-Ədəb əl-Mufrad", 401; "Musnəd İmam Əhməd", 2/68; "Silsilə əl-Əhadis əs-Səhihə", 637.

[2] "əl-Həşr" surəsi, 10.

[3] "əl-Maidə" surəsi, 8.

[4] Yəni, Allahdan qorxan möminlər.

**genişliyi göylər və yer qədər olan Cənnətə tələsin. O müttəqilər ki, bolluqda da, qıtlıqda da** ***mallarından Allah yolunda*** **xərcləyir, qəzəblərini boğur və insanları bağışlayarlar. Allah yaxşı iş görənləri sevir."**[1]

**Altıncı addım,** müsəlmanlar arasında soyuqluq olduğunu gördükdə onları barışdırmağa tələsməkdir. Bu xüsusda Quranda belə buyurulur: **"Onların öz aralarında pıçıldaşmalarının** (gizli danışıqlarının) **çoxunda xeyir yoxdur. Yalnız sədəqə verməyi, yaxud yaxşılıq etməyi və ya <u>insanların arasını düzəltməyi</u> əmr edən şəxsin** ***pıçıldaması*** **istisnadır. Kim bunu Allahın razılığını qazanmaq üçün edərsə, Biz ona böyük mükafat verərik."**[2]

Səhih hədisdə rəvayət edilir ki, bir dəfə Quba sakinləri arasına ədavət düşdü, hətta bir-birlərini daşa basdılar. Bu haqda Peyğəmbərə ﷺ xəbər verildikdə, o belə buyurdu: **"Gedək, onların arasını düzəldək!"**[3]

**Yeddinci addım,** hər hansı bir müsəlman haqqında deyilən məlumatı dəqiqləşdirməkdir. Bu xüsusda Quranda belə buyurulur: **"Ey iman gətirənlər! Əgər bir fasiq sizə bir xəbər gətirsə, onu araşdırın. Yoxsa, bilmədən bir qövmə pislik edər, sonra da bunun peşmanlığını çəkərsiniz."**[4]

**Səkkizinci addım,** müsəlmanların gizli eyiblərini araşdırmamaq, başqa cür desək, bir-birini güdməməkdir. Bu xüsusda Quranda belə buyurulur: **"Bir-birinizi güdməyin..."**[5]

---

[1] "Ali-İmran" surəsi, 133-134.

[2] "ən-Nisa" surəsi, 114.

[3] "Səhih əl-Buxari", 2693.

[4] "əl-Hucurat" surəsi, 6.

[5] "əl-Hucurat" surəsi, 12.

Səhih hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Ey dili ilə iman gətirmiş, lakin qəlbinə iman daxil olmamış kimsələr, müsəlmanların qeybətini qırmayın və onların eyiblərini arayıb axtarmayın! Hər kim müsəlman qardaşının eyibini arayıb axtararsa, Allah da onun eyibini arayar. Allah da kimin eyibini arayarsa, bu eyib onun evinin içində olsa belə onu ifşa edər."**[1]

Qeyd edək ki, bu məsələ ilə bağlı istisna hal mövcuddur. Belə ki, əgər o eyibi gizlətmək cəmiyyət arasında fəsada gətirib çıxaracaqsa, onu gizlətmək qəti qadağandır. Məsələn, adam cinayət etmişdirsə, bunu ört-basdır etmək olmaz. Cinayətkar mütləq şəkildə cəzalandırılmalıdır ki, cəmiyyətdə əmin-amanlıq olsun. Səhabələr رضي الله عنهم birisinin cinayət etdiyini gördükdə dərhal gəlib onu Peyğəmbərə ﷺ bildirər, o da lazım olan tədbiri görərdi.

**Doqquzuncu addım,** fitnələrdən uzaq durmaqdır. Bu xüsusda Quranda belə buyurulur: **"Allahın sənə verdiyi *nemətlə* Axirət yurduna can at. Dünyadakı nəsibini də unutma. Allah sənə yaxşılıq etdiyi kimi, sən də *başqalarına* yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə çalışma. Şübhəsiz ki, Allah fitnə-fəsad törədənləri sevmir."**[2]

Səhih hədislərdə Peyğəmbər ﷺ bunları buyurmuşdur:

**"*Vaxt gələcək* çoxlu fəsadlar və qarma-qarışıq işlər baş verəcək. Həmin vaxt oturan adam ayaq üstə olan adamdan, ayaq üstə olan adam isə *fitnəyə* meyil edən adamdan daha xeyirli olacaq. Odur ki, kim ondan canını qurtarmaq üçün bir daldalanacaq və ya bir sığınacaq tapsa, ora sığınsın."**[3];

---

[1] "Sunən Əbu Davud", 4880; "Səhih əl-Cami", 7984.

[2] "əl-Qəsəs" surəsi, 77.

[3] "Səhih əl-Buxari", 7082; "Səhih Muslim", 2886.

**“Xoşbəxt o kimsədir ki, fitnə baş qaldırdığı zaman o, kənarda dursun!”[1];**

**“Allah Ondan qorxan,** ***aza*** **qane olan və xəlvətə çəkilib** ***öz işi ilə məşğul olan*** **qulunu sevir”.[2]**

Müsəlmanların arasını vuran münafiqlər barədə isə Quranda belə xəbər verilir: **“İnsanlar arasında elələri də vardır ki, mömin olmadıqları halda: “Allaha və Axirət gününə inanırıq”– deyirlər. Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar.** ***Halbuki,*** **yalnız özlərini aldadır və** ***bunu*** **hiss etmirlər. Onların qəlblərində xəstəlik vardır,** ***üstəlik,*** **Allah onların xəstəliyini artırar. Yalan danışdıqlarına görə onlar üçün ağrılı-acılı bir əzab vardır. Onlara: “Yer üzündə fitnə-fəsad törətməyin!”– deyildiyi zaman: “Biz ki, ancaq islah edənlərik!”– deyirlər. Əslində, elə onların özləri fəsad törədənlərdir, lakin** ***bunu*** **hiss etmirlər.”[3]**

Səhih hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: **“*Hər səhər* İblis öz əsgərlərini *yer üzündə fitnə-fəsad törətməyə* göndərir. Onların İblisə ən yaxın və onun yanında məqamı ən yüksək olanı, ən böyük fitnə-fəsad törədəndir. Onlardan biri gəlib ona: “Filan, filan işi gördüm”– deyir, İblis də ona: “Sən heç bir iş görməmisən”– deyə cavab verir. Nəhayət, birisi gəlib: “Mən ərlə arvadın arasını vurdum”– deyir. Onda İblis ona yaxınlaşıb deyir: “Bəli, sən *mənə yaxınsan.*”[4]**

---

[1] “Sunən Əbu Davud”, 4263; “Silsilə əl-Əhadis əs-Səhihə”, 975.

[2] “Səhih Muslim”, 2965.

[3] “əl-Bəqərə” surəsi, 8-12.

[4] “Səhih Muslim”, 2813.

**Onuncu addım,** insanların üzünə təbəssüm etməkdir. Bu xüsusda rəvayət edilmiş hədisdə xəbər verilir ki, Cərir ﵁ demişdir: "Müsəlman olduğum gündən bəri Peyğəmbər ﷺ məni nə vaxt görsəydi, üzümə gülümsəyərdi."[1]

Həmçinin, Abdullah ibn Haris ibn Cəz ﵁ demişdir: "Mən Rəsulullahdan ﷺ daha çox təbəssüm edən bir kimsə görməmişəm."[2]

Yenə bir hədisdə deyilir ki, *bir dəfə* Peyğəmbər ﷺ əynində Nəcranda tikilmiş qalın haşiyəli bir bürüncəkdə yol gedərkən, bir bədəvi *arxadan gəlib* ona çatdı və onun bürüncəyindən tutub elə dartdı ki, bürüncək Peyğəmbərin ﷺ çiyninə iz saldı. Sonra bədəvi dedi: "Əmr ver, Allahın səndə olan malından (qənimətdən) mənə də pay versinlər." Peyğəmbər ﷺ ona tərəf çevrilib gülümsədi və *qənimətdən* ona bir pay verilməsini əmr etdi."[3]

**On birinci addım,** mömin qardaşını yalnız Allah üçün sevməkdir. Ömərdən ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Həqiqətən, Allahın qulları arasında elələri vardır ki, özləri peyğəmbər və şəhidlər olmasalar da, Allahın onlara bəxş etdiyi məqama görə Qiyamət günü peyğəmbərlər və şəhidlər onlara qibtə edəcəklər".** Səhabələr soruşdular: "Ya Rəsulullah! Bizə onlar barəsində və onların etdikləri əməllər barəsində xəbər ver ki, biz də onları sevək". Peyğəmbər ﷺ dedi: **"Onlar aralarındakı qohumluq əlaqələrinə və ya bir-birilərinə verdikləri dünya malına görə deyil, məhz Allah xatirinə bir-birilərini sevən kimsələrdir. Allaha and olsun ki,**

---

[1] "Səhih əl-Buxari", 2881; "Səhih Muslim", 2475.

[2] "Sunən ət-Tirmizi", 3645.

[3] "Səhih Muslim", 2813.

**Qiyamət günü onların üzləri nur saçacaq və onlar nurdan olan minbərlər üzərində duracaqlar. İnsanlar nədənsə qorxduqları zaman onlar heç nədən qorxmayacaq və insanlar kədərləndikləri zaman onlar kədərlənməyəcəklər".**[1]

Allah xatirinə bir-birini sevən müsəlmanları Uca Allah həm də Qiyamət günü Öz kölgəsi altında kölgələndirəcəkdir. Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Yeddi qisim insan vardır ki, Allah onları Öz kölgəsindən başqa heç bir kölgənin olmayacağı bir gündə Öz kölgəsi altında kölgələndirəcəkdir: *bunlar* ədalətli rəhbər, Rəbbinə ibadət etməklə böyüyüb boya-başa çatmış gənc, qəlbi məscidlərə bağlı olan kişi, bir-birini Allah xatirinə sevən, Onun yolunda birləşib, Onun yolunda ayrılan iki nəfər, gözəl və zadəgan bir qadın tərəfindən zinaya çağırıldıqda: "Mən Allahdan qorxuram!"– deyən kişi, sağ əli ilə verdiyi sədəqəni sol əlindən gizlədən adam və xəlvətə çəkilib Allahı yad etdikdən sonra gözləri yaşla dolan kişi** (və ya qadındır)**."**[2]

**On ikinci addım,** özü üçün istədiyini mömin qardaşı üçün də istəməkdir. Bu xislət müsəlmanların qəlblərini birləşdirir.

Ənəs رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Biriniz özü üçün istədiyini *müsəlman* qardaşı üçün istəmədikcə, *tam şəkildə* iman etmiş olmaz."**[3]

Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, bir nəfər Peyğəmbərin ﷺ yanına *qonaq* gəldi. O, *səhabələrdən* birini *yemək-içmək gətirmək üçün* zövcələrinin yanına göndərdi. Peyğəmbərin ﷺ

---

[1] Səhih Əbu davud, 3527.

[2] "Səhih əl-Buxari", 660.

[3] "Səhih əl-Buxari", 13; "Səhih Muslim", 45.

zövcələri evdə sudan başqa heç nə olmadığını ona xəbər verdilər. Onda Peyğəmbər ﷺ *səhabələrinə müraciət edib* dedi: **“Kim *qonağıma* qayğı göstərər və ya onu evində qonaq saxlayar?”** Ənsardan olan bir nəfər[1]: “Mən!”– deyib onu evinə apardı və zövcəsinə: “Rəsulullahın qonağına layiqincə hörmət et”– deyə buyurdu. *Zövcəsi ona*: “Uşaqların yeməyindən başqa yemək yoxdur!”– deyə cavab verdi. *Səhabə* dedi: “Yeməyi hazırla, çırağı yandır, uşaqlar yemək istəsələr, onları yatızdır!” Zövcəsi yeməyi hazırladı, çırağı yandırdı və uşaqlarını yatızdırdı. Sonra ayağa qalxıb özünü guya çırağı düzəldirmiş kimi göstərdi və bilərəkdən onu söndürdü. Sonra hər ikisi *əllərini qaba uzadaraq* özlərini guya yemək yeyirlərmiş kimi *qonağa* göstərdilər və o gecə onlar ac yatdılar. Səhər açıldıqda hər iki əshabə Peyğəmbərin ﷺ yanına getdi. Peyğəmbər ﷺ *onlara*: **“Allah sizin dünənki əməlinizə güldü və ya ondan təəccübləndi!”**– dedi və bu ayə nazil oldu: **“Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır.”**[2]

---

[1] Muslimin rəvayətində bu səhabənin Əbu Talhə əl-Ənsari رضي الله عنه olduğu xəbər verilir.

[2] “Səhih əl-Buxari”, 3898; “Səhih Muslim”, 2054.

# İSLAM MƏRHƏMƏT DİNİDİR

Uca Allah İslam dininin təbliğ olunması üçün Muhəmməd peyğəmbəri ﷺ elçi seçmiş və ona mərhəmətli olmağı buyurmuşdur. Bu xüsusda Quranda belə buyurulur: **"Səni aləmlərə yalnız rəhmət olaraq göndərdik."**[1]

Hədisdə Peyğəmbər ﷺ belə demişdir: **"Mən rəhmət peyğəmbəriyəm."**[2]

Bu dəlillərdən aydın başa düşülür ki, Peyğəmbər ﷺ insanların hamısına – müsəlmanına da, qeyri-müsəlmanına da, ərəbinə də, ərəb olmayanına da rəhmət olaraq göndərilmişdir. Peyğəmbər ﷺ nəinki insanlara, hətta digər canlılara da mərhəmət göstərmiş və ümmətinə də mərhəmətli olmağı tövsiyə etmişdir. Peyğəmbərimizin ﷺ bu xüsusda olan tövsiyələrindən bəziləri bunlardır:

**"Rəhm edənlərə Mərhəmətli Allah rəhm edər. Yerdəkilərə rəhm edin ki, göydəki *Allah* sizə rəhm etsin".**

**"Rəhm edin ki, sizə də rəhm edilsin! Bağışlayın ki, Allah da sizi bağışlasın."[3];**

**"İnsanlara rəhm etməyən kimsəyə Allah rəhm etməz."[4];**

**"Hər bir canlıya *göstərdiyiniz qayğı və mərhəmətə* görə savab vardır."[5]**

İnsanlarla davranış xüsusunda Peyğəmbər ﷺ müsəlmanlar üçün ən gözəl nümunədir.[6] Elə isə, hər bir müsəlman onun

---

[1] "əl-Ənbiya" surəsi, 107.

[2] "Səhih Muslim", 6254.

[3] "Musnəd imam Əhməd", 2/165, 219; "əl-Ədəb əl-Mufrad", 380.

[4] "Səhih əl-Buxari", 6828; "Səhih Muslim", 6172.

[5] "Səhih əl-Buxari", 2363; "Səhih Muslim", 7/44.

[6] **"Allahın Rəsulu sizə – Allaha və Axirət gününə ümidini bağlayan və Allahı çox zikr edənlərə gözəl nümunədir."** ("əl-Əhzab" surəsi, 21).

həyat tərzini oxuyub-öyrənməli və onun kimi mərhəmətli olmağa çalışmalıdır. İndi isə gəlin, Peyğəmbərimizin ﷺ insanlara nə cür mərhəmət göstərməsinə dair misallar çəkək:

**1) Peyğəmbərin ﷺ müsəlmanlara olan mərhəməti.**

Rəvayət edilir ki, Peyğəmbərimiz ﷺ Qurandan İbrahim peyğəmbərin عليه السلام: **"Ey Rəbbim! Həqiqətən də, *bütlər* çox adamı azdırmışlar. Kim mənə tabe olsa, o, məndəndir. Kim də mənə asi olsa, *bilsin ki,* Sən Bağışlayansan, Rəhmlisən"**[1], habelə İsa peyğəmbərin عليه السلام: **"Əgər onlara əzab versən, sözsüz ki, onlar Sənin qullarındır. Əgər onları bağışlasan, şübhəsiz ki, Sən Qüdrətlisən, Müdriksən!"**[2] dediyini oxuduqdan sonra əllərini *göyə* qaldırıb: **"Allahım, ümmətim, ümmətim!"**– dedi və ağladı. Onda Uca Allah buyurdu: **"Ey Cəbrail! Muhəmmədin yanına get, ondan soruş ki: "Səni ağladan nədir?"** [Halbuki, Rəbbi onun nə cavab verəcəyini bilirdi.] Cəbrail عليه السلام onun yanına gəlib ağlamağının səbəbini soruşduqda, Peyğəmbər ﷺ ona *ümmətinə görə narahat olduğunu* xəbər verdi. Onda Uca Allah buyurdu: **"Ey Cəbrail! Muhəmmədin yanına qayıt, *ona* de ki: "Biz səni ümmətin xüsusunda mütləq razı salacaq və səni kədərləndirməyəcəyik."**[3]

Qiyamət günü Peyğəmbər ﷺ Rəbbinin hüzurunda səcdə edəcək və həmin vaxt ona belə buyurulacaq: **"Ey Muhəmməd, başını qaldır, söylə, sözün dinlənəcək, istə, sənə istədiyin veriləcək, havadarlıq et, havadarlığın qəbul olunacaq."** Peyğəmbər ﷺ də başını qaldırıb: **"Ey Rəbbim, ümmətim, ümmətim!"**– deyə şəfaət diləyəcək. Onda Uca Allah, qəlbində xardal

[1] "İbrahim" surəsi, 36.
[2] "əl-Maidə" surəsi, 118.
[3] "Səhih Muslim", 202.

dənəsindən daha az ağırlıqda imanı olan kimsələrin Cəhənnəm odundan çıxarılmasına izin verəcək.[1]

Bu hədislər Peyğəmbərin ﷺ müsəlmanlara qarşı rəhmli olduğunu bildirir. Diqqət edin! Peyğəmbər ﷺ təkcə səhabələrinə deyil, onlardan sonra gələcək müsəlmanların halına da acıyır, onlardan heç birinin Cəhənnəmə düşməsini istəmir. Quranda deyildiyi kimi: ***“Ey müsəlmanlar!*** **Sizə özünüzdən elə bir rəsul gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O, sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir.”**[2]

**2) Peyğəmbərin ﷺ valideynə olan mərhəməti.**

İslam dini hər bir insana valideynin qayğısına qalmağı əmr edir. Hətta valideyn kafir olsa belə. Bu xüsusda Quranda belə buyurulur: **“Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə gözəl rəftar etməyi buyurur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: “Uf!” demə, üstlərinə qışqırma və onlara xoş söz söylə! Onların hər ikisinə rəhm edərək** ***təvazökarlıq*** **qanadının altına al** (onların qeydinə qal) **və: “Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!”[3]– de.”**[4]

Rəvayət edilir ki, Abdullah ibn Məsud ﵁ demişdir: “Mən Peyğəmbərdən ﷺ soruşdum: “Allahın ən çox sevdiyi *əməl* hansı əməldir?” O buyurdu: **“Namazı öz vaxtında qılmaq”.** Mən dedim: “Sonra hansıdır?” O buyurdu: **“Valideynlərin qayğısına qalmaq...”.**[5]

[1] “Səhih əl-Buxari”, 7510; “Səhih Muslim”, 193.

[2] “ət-Tovbə” surəsi, 128.

[3] Bu sözlərlə yalnız mömin valideyn üçün dua edilir. Kafir valideyn üçün isə Allahdan yalnız hidayət diləmək olar.

[4] “əl-İsra” surəsi, 23-24.

[5] “Səhih əl-Buxari”, 5970; “Səhih Muslim”, 139.

Başqa bir hədisdə də xəbər verilir ki, bir gün Peyğəmbər ﷺ *səhabələrinə*: **“Sizə böyük günahların ən böyüyü**[1] **barədə xəbər verimmi?”**– deyə üç dəfə soruşdu. Səhabələr: “Bəli, ya Rəsulullah!”– deyə cavab verdikdə, Peyğəmbər ﷺ dedi: **“Allaha şərik qoşmaq və valideynlərin üzünə ağ olmaqdır.”** *Bunu deyəndə* o, söykənmişdi, sonra qalxıb oturdu və: **“Yalan danışmaqdır”**– dedi.”[2]

Diqqət edin! Ayədə qeyd edildiyi kimi, hədislərdə də valideyn haqqı Allahın haqqı ilə yanaşı zikr edilir. Bu da valideyn haqqının nə dərəcədə vacib, bu haqqın tapdalanmasının da necə böyük günah olduğuna işarədir.

Valideynə mərhəmət göstərmək xüsusunda rəvayət edilmiş digər bir hədisdə xəbər verilir ki, bir nəfər ata-anasını gözüyaşlı qoyub, Peyğəmbərin ﷺ yanına hicrət etdi ki, *cihada getmək üçün* ona beyət etsin. Peyğəmbər ﷺ ona belə buyurdu: **“Valideynlərinin yanına qayıt, onları necə ağlatmısansa, eləcə də güldür**

Yenə bir hədisdə deyilir ki, bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib cihada getmək istədiyini bildirdi. Peyğəmbər ﷺ soruşdu: **“Valideynlərin sağdırmı?”** O: “Bəli!”– deyə cavab verdikdə, Peyğəmbər ﷺ dedi: **“Elə isə, onların qeydinə qal!”**[3]

**3) Peyğəmbərin ﷺ qadınlara olan mərhəməti.**

İslam dinindən xəbərsiz olan bəzi insanlar iddia edirlər ki, guya bu din qadınların hüquqlarını tapdalayır, onlara əziyyət verir. Əgər bu adamlar İslam dinini araşdırsalar, görərlər ki,

[1] İbn Abbas رضي الله عنهما demişdir: “Böyük günahlar o günahlardır ki, Allah onları edənlərin Cəhənnəmə düşəcəyini xəbər vermiş, yaxud onlara qəzəbi tutmuş, yaxud onları lənətləmiş, yaxud da onlara əzab vermişdir”. (“Təfsir ət-Təbəri”, 5/27; “Təfsir əl-Qurtubi”, 5/159; “Nəvəvi”, 2/271).

[2] “Səhih əl-Buxari”, 6521; “Səhih Muslim”, 87.

[3] “Səhih əl-Buxari”, 3004; “Səhih Muslim”, 4623.

Rəsulullah ﷺ hər bir müsəlmana ən çox ananın qeydinə qalmağı buyurub, həyat yoldaşının haqlarını layiqincə ödəyən müsəlmanın ən xeyirli müsəlman olduğunu bildirib, qız uşağına düzgün tərbiyə verib böyüdən müsəlmanın Cənnətlik olacağını, üstəlik, bu uşağın onu Cəhənnəm atəşindən qoruyacaq bir sipər olacağını xəbər verib, dul qadınlara yardım edən kimsənin Allah yolunda vuruşan mücahidə, üstəlik, gündüz oruc tutub, gecə namaz qılan kimsəyə bənzədiyini deyib, yetim qızları himayəyə götürən kimsənin Cənnətdə Peyğəmbərə ﷺ çox yaxın olacağını bildirib, hətta kafir cariyələrlə mərhəmətlə davranmağı və onların haqlarını ödəməyi əmr edib. Bu xüsusda varid olmuş hədislərdən bəziləri bunlardır:

– Rəvayət edilir ki, bir nəfər soruşdu: "Ya Rəsulullah, mən kimə qayğı göstərməliyəm?" O buyurdu: **"Anana!"** *Yenə* soruşdu: "Sonra kimə?" O buyurdu: **"Anana!"** *Bir daha* soruşdu: "Sonra kimə?" O buyurdu: **"Anana!"**[1] *Dördüncü dəfə*: "Sonra kimə?"– deyə soruşduqda, o: **"Atana!"**– deyə buyurdu.[2];

[1] Peyğəmbərin ﷺ anaya göstəriləcək qayğını üç dəfə təkrar etməsi, bu xüsusda ananın atadan üstün olmasına görədir. Övladın dünyaya gəlməsi və böyüyüb boya-başa çatması üçün, əlbəttə ki, ana hamıdan çox əziyyət çəkir. Nə ata, nə də başqa birisi ananın çəkdiyi əziyyəti çəkə bilməz. Bu xüsusda Quranda belə buyurulur: **"Biz insana ata-anasının qayğısına qalmağı buyurduq. Anası onu *bətnində* əziyyətlə daşımış və əziyyətlə doğmuşdur. Onun *bətndə* daşınma və süddən kəsilmə müddəti otuz ay çəkir"** ("əl-Əhqaf" surəsi, 15).

Ayələrə diqqətlə nəzər salsaq, onların hədislə olan bağlılığını görə bilərik. Belə ki, hədisdə Peyğəmbər ﷺ anaya olan qayğını üç dəfə təkrar edir, ayələrdə isə ananın öz övladına çəkdiyi üç ən böyük əziyyət xüsusilə vurğulanır: onu bətnində daşıması, sonra dünyaya gətirməsi və nəhayət, əmizdirməsi. Bu ayələr insana keçmişini xatırlatmaqla onu öz anasının qeydinə qalmağa təşviq edir.

[2] "Səhih əl-Buxari", 5971; "Səhih Muslim" 2548.

– **"Sizin ən xeyirliniz öz ailəsinə yaxşılıq edəninizdir. Mən sizin aranızda öz ailəsinə ən çox yaxşılıq edəninizəm".**[1];

– **"Kimin üç qızı olsa,** *sonra o* **bu qızları himayə etsə, onların qeydinə qalsa və onlara rəhm etsə, Cənnətə daxil olmaq ona mütləq vacib olar".** Səhabələrdən biri soruşdu: "Ya Rəsulullah, iki qızı olana da?" O dedi: **"İki qızı olana da!"**

Səhabə güman edirdi ki, əgər Peyğəmbərdən ﷺ: "*Ya Rəsulullah,* bir qızı olana da?"– deyə soruşulsaydı, o: **"Bir qızı olana da!"**– deyərdi.[2];

– **"Dul qadınlara və kasıblara əl tutan kimsə Allah yolunda vuruşan mücahidə, həmçinin gündüzlər oruc tutub, gecələr namaz qılan kimsəyə bənzəyir".**[3]

**4) Peyğəmbərin ﷺ uşaqlara olan mərhəməti.**

– Rəvayət edilir ki, bir gün Peyğəmbər ﷺ Əlinin oğlu Həsəni رضي الله عنه öpdü. Bu vaxt bədəvilərdən Əqra ibn Habis dedi: "Mənim on övladım var, onlardan heç birini öpməmişəm". Peyğəmbər ﷺ ona baxıb dedi: **"Rəhm etməyən kimsəyə rəhm edilməz[4]".**[5]

– Rəvayət edilir ki, Əbu Hureyra رضي الله عنه demişdir: "*Bir dəfə* Peyğəmbər ﷺ Həsən və Hüseyni رضي الله عنهما götürüb bizim yanımıza gəldi. Uşaqlardan biri onun *sağ* çiynində, o biri isə *sol* çiynində oturmuşdu. Peyğəmbər ﷺ *növbə ilə* gah birini, gah da o birini öpürdü. Nəhayət, gəlib bizim yanımıza çatdıqda bir nəfər dedi: "Ya Rəsulullah, sən həqiqətən də, onları çox istəyirsən!"

---

[1] "Sunən ət-Tirmizi", 2/323; "Silsilə əl-Əhadis əs-Səhihə", 285.
[2] "Musnəd İmam Əhməd", 3/303; "əl-Ədəb əl-Mufrad", 78.
[3] "Səhih əl-Buxari", 5353; "Səhih Muslim", 7659.
[4] Yəni, Allahın qullarına rəhm etməyən kimsəyə Allah rəhm etməz.
[5] "Səhih əl-Buxari", 6013; "Səhih Muslim", 6170.

Onda Peyğəmbər ﷺ dedi: **"Kim onları sevərsə, məni sevmiş olar, kim də onlara nifrət edərsə, mənə nifrət etmiş olar".**[1];

– Abdullah ibn Səlamın oğlu Yusuf رضي الله عنه demişdir: "Rəsulullah ﷺ mənə Yusuf adını verdi, məni dizinin üstünə oturtdu və mənim başımı sığalladı".[2];

– Rəvayət edilir ki, Peyğəmbər ﷺ orta barmağıyla işarə barmağını yan-yana azacıq aralı tutub demişdir: **"Mən və yetimin hamisi Cənnətdə *bu iki barmaq kimi yaxın* olacağıq."[3];**

– O ﷺ həmçinin demişdir: **"Malından kasıblara, yetimlərə və müsafirlərə verən varlı müsəlman nə gözəl *bəndədir*!"[4];**

Deməkt, uşaqları öpmək, qucaqlamaq, diz üstə oturtmaq və başını sığallamaq, xüsusilə də yetimlərin qeydinə qalmaq onlara mərhəmət göstərməyə aiddir.

**5) Peyğəmbərin ﷺ qeyri-müsəlmanlara olan mərhəməti.**

Peyğəmbərin ﷺ qeyri-müsəlmanlara göstərdiyi mərhəmətə nümunə kimi, onun Taif səfərini misal çəkmək olar:

Tarixçilər rəvayət edir ki, Peyğəmbərə ﷺ ən böyük dəstək verən həyat yoldaşı Xədicə رضي الله عنها və əmisi Əbu Talib hicrətin 10-cu ilində vəfat etdikdən sonra müşriklərin Peyğəmbərə ﷺ olan təzyiqləri də artır. Bu zaman Peyğəmbər ﷺ Taifə[5] – dayılarının yanına gedir ki, bəlkə onlar ona dəstək versinlər. Lakin taiflilər nəinki onun dəvətini rədd edir, hətta özünü də daşa basıb Taifdən qovurlar. Onların atdıqları daşlar Peyğəmbərin ﷺ ayaqlarına dəyir, ayaqlarını yaralayır. O ﷺ ayaqlarından qan

[1] "Müsnəd imam Əhməd", 2/440; "Silsilə əl-Əhadis əs-Səhihə", 2895.

[2] "Müsnəd imam Əhməd", 4/35; "əl-Ədəb əl-Mufrad", 367.

[3] "Səhih əl-Buxari", 5304.

[4] "Səhih əl-Buxari", 1465.

[5] Taif, Məkkədən təxminən 100 kilometr uzaqlıqda olan yerdir.

axa-axa Taifdən çıxır. Qərnis-səalibə deyilən yerdə Peyğəmbər ﷺ dincini almaq üçün bir ağacın kölgəsinə çəkilir.[1] Sonralar Peyğəmbər ﷺ bu hadisəni danışarkən belə demişdir: **"Həmin vaxt mən başımı yuxarı qaldırdım və Cəbraili gördüm. O, məni səsləyib dedi: "Allah sənin həmqəbilələrinin nə dediklərini, sənə nə etdiklərini, sənə necə rədd cavabı verdiklərini eşitdi. Rəbbin dağlar mələyini sənin yanına göndərib ki, onları bəlaya düçar etmək və onlardan intiqam almaq üçün istədiyini bu mələyə əmr edəsən". Dağlar mələyi mənə salam verdikdən sonra dedi: "Ey Muhəmməd, nə istəyirsənsə, buyur! İstəyirsən, bu iki dağı onların başına uçurdum!" Mən dedim: "Yox, istəmirəm. Onlar cahil insanlardır. Mən ancaq onu istəyirəm ki, Allah onların belindən Tək Allaha ibadət edən və Ona heç bir şeyi şərik qoşmayan kimsələr gətirsin!"**[2]

Yeri gəlmişkən, kafirlərə mərhəmət göstərmək xüsusunda Quranda belə buyurulur: **"Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allahın sözünü eşitsin. Sonra onu özünün xatircəm olduğu yerə çatdır. Çünki onlar *haqqı* bilməyən bir qövmdür."**[3];

**"Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla ədalətlə davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah ədalətli olanları sevir."**[4]

---

[1] İbn Kəsir, "əl-Bidayə vən-Nihayə", 4/340; Mubarakfuri, "Rəhiq əl-Məxtum", səh. 113.

[2] "Səhih əl-Buxari", 3231; "Səhih Muslim", 1795.

[3] "ət-Tovbə" surəsi, 6.

[4] "əl-Mumtəhənə" surəsi, 8.

Bu ayədən o da aydın başa düşülür ki, eyni münasibəti müsəlmanlara qarşı vuruşan kafirlərə göstərmək olmaz. Bu haqda Quranda buyurulduğu kimi: **“Sizinlə vuruşanlara qarşı Allah yolunda siz də vuruşun, lakin həddi aşmayın! Həqiqətən, Allah həddi aşanları sevməz.”**[1]

Burada “hədd” deyildikdə, qadağan edilmiş bütün hədlər qəsd edilir. Belə ki, sizə qarşı vuruşmayan qadınları, uşaqları, qocaları, rahibləri və başqa bu kimi insanları qətlə yetirmək, öldürülənlərin cəsədlərini eybəcər hala salmaq, burunlarını, qulaqlarını və s. əzalarını kəsmək, əsirlərə işgəncə vermək, hətta heyvanları qırmaq, ağacları kəsmək, ibadətgahları dağıtmaq, evləri uçurmaq və s. qadağandır. Bu da İslam dininin yaradılışa qarşı nə dərəcədə mərhəmətli bir din olduğunu göstərir.

Birinci xəlifə Əbu Bəkr əs-Siddiq ﺭﺿﻲ ﺍﻟﻠﻪ ﻋﻨﻪ Usamə ibn Zeydi orduya başçı təyin edib döyüşə göndərərkən döyüşçülərə belə tövsiyə etmişdir: “Ey möminlər, sizə on şeyi tövsiyə edirəm, onu yadınızdan çıxartmayın:

Xəyanət etməyin! Kin saxlamayın! Qəddarlıq etməyin! İşgəncə verməyin! Uşaqları qətlə yetirməyin! Qocaları və qadınları öldürməyin! Xurma ağaclarını kəsməyin və onları yandırmayın! Meyvə ağaclarını kəsməyin! Qoyunları, inəkləri və dəvələri öldürməyin! –yalnız yeyəcəkləriniz istisnadır. Məbədləri dağıtmayın, orada ibadət edən dindarlara toxunmayın.”[2]

---

[1] “əl-Bəqərə” surəsi, 190.

[2] Təbəri, “Tarix ər-Rusul vəl-Muluk”, 3/227.

# MUHƏMMƏD PEYĞƏMBƏRİN ﷺ QEYRİ-MÜSƏLMANLARA OLAN MÜNASİBƏTİ

İslam dini hər bir müsəlmana: **"Yaxşılıq edin! Həqiqətən, Allah yaxşılıq edənləri sevir"**[1]– deyə insanlara yaxşılıq etməyi əmr edir. Yaxşılıq etmək müsəlmana yaraşan ən gözəl əxlaqi xislətlərdəndir. Yaxşılıq edəcəyimiz insanlar qeyri-müsəlman olsalar belə, onlara yaxşılıq etmək qadağan deyil:

**"Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla ədalətlə davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah ədalətli olanları sevir."[2];**

**"Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, miskinlərə, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz *kölə və kənizlərə* yaxşılıq edin! Həqiqətən, Allah lovğalıq edənləri və özünü öyənləri sevmir."[3]**

Bu ayələrdə uca Allah müsəlmanlara yaxşılıq etməyi əmr edir və yaxşılıq edəcəyi insanların ancaq müsəlman olmasını istisna etmir. Yəni, əgər müsəlmanın valideyni, yaxud qohumu, yaxud qonşusu və ya ümumiyyətlə ehtiyacı olan başqa birisi qeyri-müsəlmandırsa, İslam dini müsəlmanın onlara yaxşılıq etməsini qadağan etmir.

Həmçinin, Peyğəmbər ﷺ də hədislərdə müsəlmanları yaxşılıq etməyə təşviq etmişdir. Həmin hədislərdən bəziləri bunlardır:

**"Kim Allaha və Axirət gününə iman gətirirsə, qonşusuna yaxşılıq etsin. Kim Allaha və Axirət gününə iman gətirirsə,**

---

[1] "əl-Bəqərə" surəsi, 195.

[2] "əl-Mumtəhənə" surəsi, 8.

[3] "ən-Nisa" surəsi, 36.

**qonağına ehtiram göstərsin. Kim Allaha və Axirət gününə iman gətirirsə, ya xeyir söyləsin, ya da sussun."**[1]**;**

**"Kimə mülayim olmaq nəsib edilmişsə, ona dünya və Axirət xeyri bəxş edilmişdir. Qohumlarla əlaqə saxlamaq, gözəl əxlaqlı olmaq və qonşuya yaxşılıq etmək məmləkəti dirçəldir və ömrü uzadır."**[2]**;**

**"Allah yanında dostların ən xeyirlisi öz dostuna yaxşılıq edən, qonşuların ən xeyirlisi də öz qonşusuna yaxşılıq edən kimsədir."**[3]

Hədislərdən aydın başa düşülür ki, qohuma və qonşuya – onlar qeyri-müsəlman olsalar belə, yaxşılıq etmək möminə yaraşan əxlaqdır. Allah yanında hörmətli olmaq istəyən mömin adam insanlara yaxşılıq etməlidir.

Yenə bir hədisdə Peyğəmbər ﷺ demişdir: **"Cəbrail qonşu haqqında mənə o qədər tövsiyə etdi ki, hətta qonşuya mirasdan pay düşəcəyini güman etdim."**[4]

Bu nəsihəti yerinə yetirən səhabə Abdullah ibn Amr رضي الله عنهما bir gün bir qoç kəsdirdi və xidmətçisinə belə buyurdu: "Qoçu soyub qurtardıqdan sonra ətdən yəhudi qonşumuza da pay ver! Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: **"Cəbrail qonşu haqqında mənə o qədər tövsiyə etdi ki, hətta qonşuya mirasdan pay düşəcəyini güman etdim."**[5]

Cəbrailin عليه السلام bu tövsiyəni Peyğəmbərə ﷺ vaxtaşırı xatırlatması qonşu haqqının nə dərəcədə vacib olduğunu bildirir.

Digər bir hədisdə isə xəbər verilir ki, səhabələr Peyğəmbərə ﷺ dedilər: "Ya Rəsulullah, filan qadın gecələr namaz

[1] "Səhih əl-Buxari", 6018; "Səhih Muslim", 176.
[2] "Musnəd Əhməd", 6/159; "Silsilə əl-Əhadis əs-Səhihə", 519.
[3] "Sunən ət-Tirmizi", 1/353; "əl-Ədəb əl-Mufrad", 115.
[4] "Səhih əl-Buxari", 6014; "Səhih Muslim", 6854.
[5] "Sunən ət-Tirmizi", 1943; "əl-Ədəb əl-Mufrad", 105 və 128.

qılır, gündüzlər oruc tutur, yaxşı işlər görür, sədəqə paylayır, lakin qonşularına dili ilə əziyyət verir[1]". Peyğəmbər ﷺ dedi: **"O qadında xeyir yoxdur. O, Cəhənnəm əhlindəndir."** Onlar dedilər: "Filan qadın da yalnız vacib namazları qılır, yağsız pendirdən sədəqə verir, heç kəsə də əziyyət vermir." Peyğəmbər ﷺ dedi: **"O, Cənnət əhlindəndir."**[2]

Diqqət edin! Peyğəmbər ﷺ, qonşusuna əziyyət verən kimsənin cəhənnəmlik olacağını xəbər verir. Məlumdur ki, Cəhənnəm oduna girməyə səbəb olan hər bir əməl böyük günahlardan sayılır. Deməli, qonşuya əziyyət verməyk böyük günahdır.

Hədisdən o da aydın olur ki, qonşusuna əziyyət verməyən müsəlman cənnətlik ola bilər.[3]

Xüsusilə qeyd edək ki, müsəlman adına ləkə gətirən radikal firqələr müsəlmanlarla bir ölkədə əmin-amanlıqda yaşayan qeyri-müsəlmanın qanını halal sayır, hətta fürsət tapdıqca onları öldürməyə də əl atırlar. Peyğəmbər ﷺ bu cinayəti edən kimsənin cəhənnəmlik olacağını bildirərək demişdir: **"Kim bir müahidi[4] öldürərsə, Cənnətin iyini duymaz. Halbuki onun iyi qırx illik məsafədən duyulur."**[5]

---

[1] Yəni, qonşunun qeybətini etmək, onu söymək, ona lənət oxumaq, ona böhtan atmaq və başqa bu kimi əziyyətlər nəzərdə tutulur.

[2] "Səhih İbn Hibban", 2054; "əl-Ədəb əl-Mufrad", 119.

[3] Peyğəmbər ﷺ demişdir: "Altı əməli *yerinə yetirəcəyinizə dair* mənə zəmanət verin, Cənnətə girəcəyinizə dair sizə zəmanət verim: danışdığınız zaman düz danışın; vəd verdikdə onu yerinə yetirin; sizə əmanət verilərsə, onu yiyəsinə qaytarın; ayıb yerlərinizi *zinadan* qoruyun; gözünüzü *haram buyurulanlardan* çəkin və bir də əlinizlə heç kəsə əziyyət verməyin". ("Musnəd İmam Əhməd", 5/323; Silsilə əl-Əhadis əs-Səhihə, 1470).

[4] Bu sözün hərfi tərcüməsi "saziş bağlayan tərəf" deməkdir. Bu hədisdə İslamı qəbul etməyən, bağladığı saziş əsasında müsəlman ölkəsində yaşayan qeyri-müsəlman nəzərdə tutulur.

[5] "Səhih əl-Buxari", 3166.

# İSLAM QARDAŞLIĞINA XƏLƏL GƏTİRƏN AMİLLƏR

Bir qədər əvvəldə qeyd etdik ki, peyğəmbərlər ﷺ ata bir qardaşdırlar. Bunun səbəbi isə Allahın tək İlah olduğuna iman gətirməkdir. Belə ki, imanlı insanla imansız insan bir-birinə qardaş ola bilməz. Quranda: **"Həqiqətən, möminlər qardaşdırlar"**[1]– deyilir. Bu da o deməkdir ki, mömin adam Allaha düşmən olan kimsəni özünə dost tutmaz. Uca Allah bunu qətiyyətlə qadağan edir: **"Ey iman gətirənlər! Möminləri qoyub kafirləri *özünüzə* dost tutmayın."**[2]**;**

**"Ey iman gətirənlər! Mənim düşmənimi də, öz düşməninizi də özünüzə dost tutmayın!"**[3]

Demək, məhz **Allah rizası üçün qurulan iman qardaşlığı** həqiqi qardaşlıq sayılır. Bu da, üzərində iman qardaşlığı qurulacaq ilk təməldir. Bu təməl üzərində qurulmayan "qardaşlıq" axırda puç olacaq və dünyada ikən bir-birini qardaş sayan adamlar Qiyamət günü bir-birinə düşmən kəsiləcəklər – Quranda xəbər verildiyi kimi: **"Qiyamət günü müttəqilərdən** (Allahdan qorxan möminlərdən) **başqa *bütün* dostlar bir-birinə düşmən kəsiləcəklər."**[4]

Üzərində qardaşlıq quracağımız **ikinci təməl, son Peyğəmbərin ﷺ yoludur.** Mömin adam yalnız Peyğəmbərin ﷺ yolunda olan möminlərlə dostluq etməlidir, – yoxsa axırda peşman olacaq. Beləsi, tutduğu yolun düz yol olmadığını

---

[1] "əl-Hucurat" surəsi, 10.

[2] "ən-Nisa" surəsi, 144.

[3] "əl-Mumtəhənə" surəsi, 1.

[4] "əz-Zuxruf" surəsi, 67.

Qiyamət günü dərk edəcək və deyəcək: **"Kaş, mən Peyğəmbərin yolunu tutub gedəydim! Vay halıma! Kaş, filankəslə dost olmayaydım!"**[1]

Deməli, mömin adam özünə elə dostlar seçməlidir ki, Qiyamət günü bu seçiminə görə peşman olmasın. Heç ola bilərmi ki, mömin adam Allahın və Onun peyğəmbərinin ﷺ düşmənini özünə dost tutsun?! Əlbəttə ki, yox. Bu xüsusda Quranda belə buyurulur: **"Allaha və Axirət gününə iman gətirən elə bir toplum tapa bilməzsən ki, onlar Allaha və Onun rəsuluna düşmən olanlarla dostluq etsinlər."**[2]

Elə isə, əziz müsəlmanlar, özünüzə elə dostlar seçin ki, onlar sizin malınızı, vaxtınızı və ömrünüzü puç etməsinlər. Elə dost seçin ki, sözündə və əməlində düz olsun, əhdinə vəfa qılsın, əmanətə xəyanət etməsin. Elə dost seçin ki, sizi dünya mənfəəti üçün deyil, məhz Allah rizası üçün sevsin. O dost ki, onunla dostluq etdikdə, özünü xoşbəxt hiss edəsən, sənin sirrini heç kəsə deməsin, eyibini açmasın, səni təhqir etməsin və sənə daim gözəl nəsihətlər etsin. Sənin yaxşı naliyyət əldə etdiyini görəndə sevinsin və Allahdan sənin üçün daha çox xeyir diləsin, sıxıntıya düşdüyünü gördükdə isə sənin qədər kədərlənsin, sənə təsəlli versin və Allahdan sənə kömək diləsin. Elə bir dost ki, sıxıntı anında sənin yanında olsun, sənə yardım etsin və sənin üçün özünə istədiyindən də artığını istəsin.

Bu iki təməl üzərində qardaşlıq qurmaq çox çətindir. Əgər bunu qurmusunuzsa, qoymayın kimsə onu dağıtsın. Bunun üçün qardaşlıq münasibətlərinə xələl gətirən amillərin nələr olduğunu bilməlisiniz ki, onlardan uzaq durasınız, beləliklə də İslam birliyinin parçalanmasının qarşısını alasınız.

---

[1] "əl-Furqan" surəsi, 27-28.
[2] "əl-Mucadilə" surəsi, 22.

İslam qardaşlığına xələl gətirən amillərin birincisi həsəddir[1]. Peyğəmbər ﷺ bu yaramaz xisləti müsəlmanlara qadağan edib demişdir: **"Bir-birinizə nifrət etməyin, bir-birinizə həsəd aparmayın, bir-birinizə arxa çevirməyin. Ey Allahın qulları, qardaş olun!"[2]**

Digər bir hədisdə rəvayət edilir ki, səhabələrdən biri Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, mənə elə bir əməl öyrət ki, mən onu yerinə yetirdiyimdə, məni həm Allah sevsin, həm də insanlar". Peyğəmbər ﷺ buyurdu: **"Dünyaya könül bağlama, Allah səni sevsin, insanların əlindəkinə də göz dikmə, insanlar səni sevsin."[3]**

**–** İslam qardaşlığına xələl gətirən ikinci amil günah iş görmək və ya bidətə yol verməkdir. Bu xüsusda Peyğəmbər ﷺ belə demişdir: **"Bir-birini Allah rizası üçün sevən elə iki nəfər yoxdur ki, ikisindən birinin etdiyi günah onların arasını vurmuş olmasın."[4];**

**"Bir-birini Allah rizası üçün sevən elə iki nəfər yoxdur ki, ikisindən birinin etdiyi bidət onların arasını vurmuş olmasın."[5]**

---

[1] Həsəd: başqasının üstünlüyünə, xoşbəxtliyinə, rifahına, müvəffəqiyyətinə, qabağa getməsinə dözməmək, bundan dilxor olmaq, acıqlanmaq; gözügötürməməzlik, dargözlük. "Paxıl o şəxsdir ki, həsəd apardığı insana verilən nemətin puç olmağını istəyir və bunun üçün də əlindən gələn imkanlardan istifadə edərək səy göstərir. Bədnəzərlər də buna aiddir. Belə ki, bədnəzərlik xəbis nəfsli, şər təbiətli paxılın əməlindəndir". ("Təfsir əs-Sədi").

[2] "Səhih əl-Buxari", 6076; "Səhih Muslim", 2558.

[3] "Sunən İbn Macə", 4102; "Silsilə əl-Əhadis əs-Səhihə", 944.

[4] "Musnəd İmam Əhməd", 2/68; "Silsilə əl-Əhadis əs-Səhihə", 637.

[5] "Musnəd İmam Əhməd", 5/71.

– İslam qardaşlığına xələl gətirən üçüncü amil insanlarla kobud rəftar etməkdir. İslamın ilk dönəmində müsəlmanların mehriban bir camaat olmasının səbəbi də, məhz Allahın köməyi ilə Peyğəmbərin ﷺ onlarla mülayim davranması olmuşdur. Bu xüsusda Quranda belə buyurulur: **“Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər kobud və daş qəlbli olsaydın, heç şübhəsiz, onlar sənin ətrafından dağılıb gedərdilər. Elə isə onları əfv et, onlar üçün *Allahdan* bağışlanma dilə və *görəcəyin* işlər barədə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir.”**[1]

Hədislərdə isə Peyğəmbər ﷺ bunları demişdir:

**“Həqiqətən, Allah mülayimdir[2] və mülayimliyi sevir.”**[3]**;**

**“Allah ədəbsiz və kobud olan kimsəni sevmir.”**[4]**;**

**“Kimə mülayimlikdən nəsibi verilmişsə, ona xeyirdən nəsibi verilmişdir. Kim də mülayimlikdən olan nəsibindən məhrum olmuşsa, xeyirdən olan nəsibindən məhrum olmuşdur. Qiyamət günü möminin tərəzisində ən ağır gələn şey gözəl əxlaq olacaq. Həqiqətən də, Allah kobudluq edən və təhqiramiz sözlər danışan adama nifrət edir.”**[5]

– İslam qardaşlığına xələl gətirən dördüncü amil mömin qardaşın halına acımamaqdır (laqeyd qalmaqdır). Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **“Sən möminlərin bir-birinə mərhəmət göstərməkdə, bir-birini sevməkdə və bir-birinə can yandırmaqda bir bədən kimi olduğunu görürsən. Belə ki, *bədənin***

---

[1] “Ali-İmran” surəsi, 159.

[2] Mülayim, ərəbcə “Rəfiq” – Allahın gözəl adlarından biridir.

[3] “əl-Ədəb əl-Mufrad”, 466.

[4] “əl-Ədəb əl-Mufrad”, 487.

[5] “Sunən ət-Tirmizi”, 1/362; “əl-Ədəb əl-Mufrad”, 464.

**bir əzasına xəstəlik üz verdikdə, bütün bədən yuxusuzluqdan və qızdırmadan əziyyət çəkir."**[1]

Hədisdən aydın başa düşülür ki, möminlərin bir-birinə soyuq münasibət bəsləməsi onların parçalanmasına gətirib çıxardır.

**–** İslam qardaşlığına xələl gətirən beşinci amil gizli söhbətlərdir. Bu xüsusda Quranda belə buyurulur: **"Gizli söhbət, iman gətirənləri kədərləndirmək üçün, – şeytandandır."**[2]**;**

**"Onların pıçıldaşmalarının çoxunda xeyir yoxdur."**[3]

Hədisdə də Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Üç nəfər olduğunuz zaman, *sizlərdən* ikisi öz aralarında pıçıldaşıb, üçüncüsünü kənarda qoymasın. Belə ki, onların bu hərəkəti onu kədərləndirər."**[4]

**–** İslam qardaşlığına xələl gətirən altıncı amil özünü dartmaq, özünü digərlərindən üstün bilmək, bəyənməkdir. Allahın bu yaramaz xisləti sevməməsi barədə Quranda belə buyurulur: **"Oğlum! Namaz qıl, yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə. Başına gələn çətinliklərə səbir et. Həqiqətən, bu, əzm *tələb edən* əməllərdəndir. İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir."**[5]

Bir hədisdə də Peyğəmbər ﷺ belə demişdir: **"Adamın şər əhli olması üçün müsəlman qardaşına həqarətlə baxması kifayətdir."**[6]

---

[1] "Səhih əl-Buxari", 6011.
[2] "əl-Mucadilə" surəsi, 10.
[3] "ən-Nisa" surəsi, 114.
[4] "Səhih əl-Buxari", 6288; "Səhih Muslim", 7/13.
[5] "Loğman" surəsi, 17-18.
[6] "Səhih Muslim", 2564.

– İslam qardaşlığına xələl gətirən yeddinci amil hər xırda səhvə sərt şəkildə irad tutmaq, onu şişirdib səhv edən adama tənə vurmaq və onu məsxərəyə qoymaqdır. Bu xüsusda Quranda belə buyurulur: **"Ey iman gətirənlər! Bir toplum digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları** ***məsxərəyə qoymasınlar*****. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fasiq adlanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır."**[1]

Hədisdə isə Peyğəmbər ﷺ demişdir: **"Mömin o kəsdir ki, insanlarla gözəl münasibət qursun, insanlar da onunla gözəl münasibət qursunlar. İnsanlarla gözəl münasibət qurmayan kimsədə xeyir olmaz. İnsanların ən xeyirlisi isə onlara yaxşılıq edənidir."**[2]

– İslam qardaşlığına xələl gətirən səkkizinci amil xəta etmiş bir müsəlmanı ləkələmək üçün camaat arasında onun adını çəkərək eyibini açmaqdır. Halbuki, İslam ümmətinə nümunə olmuş Peyğəmbər ﷺ hər hansı bir müsəlmanın səhvini düzəltmək istəyəndə onun adını çəkib onu gözdən salmağa çalışmaz, sadəcə onun yanlış əməlini xadırladardı ki, onu islah etsin. Məsələn, Peyğəmbər ﷺ cümə namazını tərk edənlər barədə demişdir: **"Cümə namazına gəlməyən kimsələr ya buna son qoyacaq, ya da Allah onların qəlbini möhürləyəcək və onlar qafillərdən olacaqlar."**[3]

Diqqət edin, Peyğəmbər ﷺ cüməni tərk edənlərin kimlər olduğunu bildiyi halda, onların adlarını çəkmir.

---

[1] "əl-Hucurat" surəsi, 11.

[2] Hakim, "Mustədrək", 1/73; "Silsilə əl-Əhadis əs-Səhihə", 426.

[3] "Səhih Muslim", 865.

Digər hədisdə isə o ﷺ belə buyurmuşdur: **“Əgər bir adam səndə olan nöqsanı bilib sənə eyib tutarsa, sən onda olan nöqsanı bildiyin halda ona eyib tutma. Burax onu, qoy günahı öz boynuna düşsün, savab isə sənə qalsın.”[1];**

**“Kim bir müsəlmanın eyibini örtərsə, Allah da Qiyamət günü onun eyibini örtər.”[2]**

**–** İslam qardaşlığına xələl gətirən doqquzuncu amil müsəlmanın təqsirindən keçməməkdir. Halbuki, Uca Allah bunun əksini əmr edir: **“Sən onları gözəl tərzdə bağışla.”[3]**

Diqqət edin, Uca Allah sadəcə bağışlamağı deyil, gözəl tərzdə bağışlamağı əmr edir.

Hədisdə isə Peyğəmbər ﷺ belə buyurur: **“Kim bir müsəlmanı bağışlasa, Allah onun hörmətini artırar.”[4]**

Hədisin əks anlamından aydın başa düşülür ki, müsəlmanı bağışlamayan kimsəni Allah hörmətdən salar.

**–** İslam qardaşlığına xələl gətirən onuncu amil nəmmamlara[5] inanmaqdır, ki, Uca Allah bunu qadağan edir: **“Ey iman gətirənlər! Əgər bir fasiq sizə bir xəbər gətirsə, *onu* araşdırın.**

[1] “Sunən Əbu Davud”, “əl-Ədəb əl-Mufrad”, 1182.

[2] “Səhih əl-Buxari”, 2442.

[3] “əl-Hicr” surəsi, 85.

[4] “Səhih Muslim”, 2588.

[5] Sözgəzdirən adama ərəbcə “nəmmam” və ya “qəttat” deyilir. İslam alimləri bu iki kəlmənin məna baxımından fərqli olduğunu söyləmişlər. Xəttabi demişdir: “Bir toplumun yanında oturub onların danışdıqlarına qulaq asan və eşitdiklərini orada-burada yayan kimsəyə *nəmmam* deyilir. Bir toplumun xəbəri olmadan kənardan onlara qulaq asan və onlardan eşitdiyini başqalarına çatdıran kimsəyə *qəttat* deyilir”. (“Umdətul-Qari”, 6056-cı hədisin şərhi). Bunların hər ikisi böyük günah hesab edilsə də, qəttatın günahı daha böyük, şəri daha çoxdur.

**Yoxsa bilmədən bir qövmə pislik edər, sonra da bunun peşmançılığını çəkərsiniz."**[1]

Hədisdə isə Peyğəmbər ﷺ belə demişdir: **"Sizin ən pisiniz söz gəzdirənlər, dostların arasını vuranlar və təmiz adamlara şər yaxanlardır."**[2]**;**

**"Söz gəzdirən adam Cənnətə girməz!**[3]**"**[4]

**–** İslam qardaşlığına xələl gətirən <u>on birinci amil</u> sirri yaymaqdır. Bu xüsusda Əli ibn Əbu Talib رضي الله عنه demişdir: "Tələskən, şayiələr yayan və sirr saxlamayan kimsələrdən olmayın! Yoxsa başınıza şiddətli, məyusedici bir bəla gələr və uzun sürən, böyük bir fitnəyə məruz qalarsınız."[5]

**–** İslam qardaşlığına xələl gətirən <u>on ikinci amil</u> zənnə qapılmaqdır. Bu xüsusda Quranda belə buyurulur: **"Ey iman gətirənlər, zənnə qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır."**[6]

Hədisdə isə Rəsulullah ﷺ demişdir: **"Zənnə qapılmaqdan çəkinin! Çünki zənn ən yalan sözdür.**[7]**"**[8]

---

[1] "əl-Hucurat" surəsi, 6.

[2] Əbu Nueym, "Əxbar Əsbəhan", 1/231; "Silsilə əl-Əhadis əs-Səhihə", 1646.

[3] Qeyd edək ki, bu hədisdə "Cənnətə girməz" deyildikdə, əbədiyyət qəsd edilmir. Yəni nəmmamlıq edən müsəlman əbədi olaraq Cəhənnəmdə qalmayacaqdır. Yalnız bunun halal olduğuna etiqad edən kimsələr istisnadır. Belə ki, Allahın və Onun Rəsulunun ﷺ haram buyurduğunu halal hesab edən hər kəs kafir sayılır və əbədi olaraq Cəhənnəmə giriftar olur.

[4] "Səhih əl-Buxari", 6056.

[5] "əl-Ədəb əl-Mufrad", 327.

[6] "əl-Hucurat" surəsi, 12.

[7] Çünki insan zənnə qapıldığı zaman zənn etdiyi adam barəsində əsassız sözlər danışır, beləliklə də yalan danışmış olur.

[8] "Səhih əl-Buxari", 6066; "Səhih Muslim", 3563.

**–** İslam qardaşlığına xələl gətirən on üçüncü amil müsəlmanı güdmək və onun eyiblərini araşdırmaqdır. Bu xüsusda Quranda belə buyurulur: **"Bir-birinizi güdməyin..."**[1]

Hədisdə isə Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Bir-birinizin eyibini axtarmayın, casusluq etməyin, bir-birinizlə rəqabət aparmayın, bir-birinizə həsəd aparmayın, bir-birinizə nifrət etməyin, bir-birinizə arxa çevirməyin. Ey Allahın qulları, qardaş olun!"**[2]

– İslam qardaşlığına xələl gətirən on dördüncü amil xudbin olmaqdır, yəni ancaq özünü düşünmək və öz mənafeyini hər şeydən üstün tutmaqdır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Biriniz özü üçün istədiyini *müsəlman* qardaşı üçün istəmədikcə, *tam şəkildə* iman etmiş olmaz."**[3]

**–** İslam qardaşlığına xələl gətirən on beşinci amil sevgidə ifrata varmaqdır. Adam mömin qardaşını sevməli, hətta onu sevdiyini ona bildirməlidir, lakin bu sevgidə həddi aşmamalıdır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Xristianlar Məryəm oğlunu şişirtdikləri kimi siz də məni şişirtməyin! Mən sadəcə Allahın quluyam. Elə isə, *mənə*: "Allahın qulu və rəsulu!"– deyin."**[4]

**–** İslam qardaşlığına xələl gətirən on altıncı, on yeddinci və on səkkizinci amillər yalan danışmaq, vəd verdikdə vədi yerinə yetirməmək və əmanətə xəyanət etməkdir. Bütün bunlar

---

[1] "əl-Hucurat" surəsi, 12.

[2] "Səhih əl-Buxari", 6066; "Səhih Muslim", 3563.

[3] "Səhih əl-Buxari", 13.

[4] "Səhih əl-Buxari", 3445.

münafiqliyin əlamətləridir. Əməlində nifaq olan kimsə ilə də qardaşlıq münasibəti qurmaq olmur. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Münafiqin əlaməti üçdür: danışanda yalan danışar, vəd verdikdə *vədinə* xilaf çıxar və ona əmanət verildikdə, əmanətə xəyanət edər."**[1]

Allahdan istəyim budur ki, bizi bu yaramaz xislətlərdən uzaq etsin, bizi Allah xatirinə bir-birini sevən qullarından etsin və bizi Öz dostlarının cərgəsinə daxil etsin!

[1] "Səhih əl-Buxari", 33; "Səhih Muslim", 211.

# ƏMİN-AMANLIĞI TƏMİN ETMƏYİN ƏSASLARI

Uca Allah insanların yer üzündə əmin-amanlıq içində yaşamasını təmin etmək üçün əsrlər boyu peyğəmbərlər ﵈ göndərmişdir. Hər bir peyğəmbərin vəzifəsi insanları yer üzündə fəsad törədənlərin – İblisə qulluq edənlərin yollarından uzaqlaşdırıb, Allahın buyurduğu haqq yola – İslama dəvət etmək olmuşdur. Əvvəldə də qeyd edildiyi kimi, peyğəmbərlərin hamısı ﵈ müsəlman olmuş və insanları tövhidə[1] dəvət etmişlər. Demək, yer üzündə əmin-amanlığın təmin edilməsi üçün, peyğəmbərlərin ﵈ öyrətdiyi kimi, Allahın ibadətə layiq Tək İlah olduğuna və Onun heç bir şəriki olmadığına iman gətirmək, Allahdan qorxub pis əməllərdən çəkinmək və ancaq yaxşı işlər görmək lazımdır.

**– Yer üzündə əmin-amanlığı təmin edən əsasların birincisi hər bir insanın layiqli mömin olmasıdır.** Bu xüsusda Quranda belə buyurulur: **"İman gətirib *əməllərini* islah edənlərin heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər."**[2]**;**

**"İman gətirdikdən sonra imanlarına zülm qatışdırmayanları** (Allaha şərik qoşmayanları) **əmin-amanlıq gözləyir. Doğru yola yönəlmişlər də məhz onlardır."**[3]

Peyğəmbər ﷺ isə belə buyurur: **"Müsəlman o kəsdir ki, onun dilindən və əlindən başqa insanlara zərər dəyməsin.**

---

[1] **"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun"– *deyə*, peyğəmbər göndərmişik."** ("ən-Nəhl" surəsi, 36).

[2] "əl-Ənam" surəsi, 48.

[3] "əl-Ənam" surəsi, 82.

**Mömin o kəsdir ki, insanlar onun onların canına və malına xətər toxundurmayacağından əmin olsunlar."**[1]

Peyğəmbərlərin عليهم السلام həyat-tərzinə baxsaq görərik ki, onlar daim sülhün tərəfdarı olmuş, insanları bir-birlərinə zülm etməkdən, bir-birinin malını qəsb etməkdən, bir-birinin qanını axıtmaqdan və başqa bu kimi günahlardan çəkindirmişlər. Yəni bu işdə peyğəmbərlər عليهم السلام bəşəriyyət üçün nümunədirlər.

İmanı olmayan, Allahdan qorxmayan, etdiyi yaramaz əməllərə görə Qiyamət günü haqq-hesaba çəkiləcəyini düşünməyən, insanların canına və malına qəsd edən zalım adamlar isə yer üzündə hər zaman fitnə-fəsad törədib, törədir və çox güman ki, bundan sonra da törədəcəklər.

**– Əmin-amanlığı təmin edən əsasların ikincisi ixlaslı (səmimi) olmaqdır.**

İnsan Allahla, sonra da insanlarla səmimi olduqda, Allah onun qəlbinə rahatlıq və arxayınlıq bəxş edir, güzəranını yaxşılaşdırır, insanlar arasında hörmətini artırır, hətta bu dünyadan köçdükdən sonra onu dillər əzbəri edir. Necə ki, peyğəmbərlərə عليهم السلام və onların davamçılarına bunu nəsib edib. Bu xüsusda Quranda belə buyurulur: **"Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi, onları da yer üzünün varisləri edəcək, möminlər üçün Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu əmin-amanlıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir."**[2]

---

[1] "Sunən ət-Tirmizi", 2627; "Səhih ət-Tirmizi", 3/47.
[2] "ən-Nur" surəsi, 55.

Bu ayədə Qüdrətli Allah Muhəmməd peyğəmbərə ﷺ və onun səhabələrinə رضي الله عنهم məhz ixlaslı olduqlarına görə onlara əmin-amanlıq bəxş edəcəyini və onları yer üzünün varisləri edəcəyini vəd edir, sonra da vədini yerinə yetirir. Bu nemətləri onlara bəxş etməsinin səbəbini də ayədə açıq-aydın bildirir: **"Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar."**

Yəni onlar peyğəmbərlərin عليهم السلام təbliğ etdiyi tövhidi – əsl İslamı yaşayırlar. Odur ki, Uca Allah onları dillər əzbəri etmiş, əsrlər boyu mömin insanlar da onları xoş xatirələrlə yad etmişlər.

Ayənin əks anlamından aydın başa düşülür ki, insanda ixlas və səmimiyyət olmadıqda, yer üzündə daim fitnə-fəsad törətməyə çalışar, hətta həyasızcasına özünün haqlı olduğunu düşünər. Quran onları bizə belə vəsf edir: **"İnsanlar arasında elələri də var ki, mömin olmadıqları halda: "Allaha və Axirət gününə inanırıq"– deyirlər. Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. *Halbuki,* yalnız özlərini aldadır və *bunu* hiss etmirlər. Onların qəlblərində xəstəlik vardır, *üstəlik,* Allah onların xəstəliyini artırar. Yalan danışdıqlarına görə onlar üçün ağrılı-acılı bir əzab vardır. Onlara: "Yer üzündə fəsad törətməyin!"– deyildiyi zaman, *onlar*: "Biz ancaq islah edirik!"– deyirlər. Əslində, elə onların özləri fəsad törədənlərdir, lakin *bunu* hiss etmirlər. Onlara: "İnsanlar iman gətirdiyi kimi, siz də iman gətirin!"– deyildiyi zaman, *onlar*: "Səfehlərin iman gətirdikləri kimi, biz də iman gətirək?"– deyirlər. Əslində, səfeh elə onların özləridir, lakin *bunu* bilmirlər."**[1]

[1] "əl-Bəqərə" surəsi, 8-13.

**– Əmin-amanlığı təmin edən əsasların üçüncüsü Allaha dua etməkdir.**

**“Bir zaman İbrahim *peyğəmbər* belə dua etmişdi: “Ey Rəbbim, bu məmləkəti əmin-amanlıq *yurdu* et. Məni və oğullarımı bütlərə tapınmaqdan uzaq elə!”**[1]

Muhəmməd peyğəmbər ﷺ də hər ayın əvvəlində hilalı – təzə doğan ayı gördükdə dua edib deyərdi:

((اللهُ أَكْبَرُ، اللَّهُمَّ أَهِلَّهُ عَلَيْنَا بِالْأَمْنِ وَالْإِيمَانِ، وَالسَّلَامَةِ وَ الْإِسْلَامِ، وَالتَّوْفِيقِ لِمَا تُحِبُّ رَبَّنَا وَتَرْضَى، رَبُّنَا وَرَبُّكَ اللهُ))

**“Allah ən Böyükdür! Allahım, ey Rəbbimiz, bu ayı əmin-amanlıqla, imanla, salamatlıqla, islamla, sevdiyin və razı qaldığın işlərə müvəffəqiyyət verməklə başımız üzərinə çıxart! *Ey hilal!* Bizim də Rəbbimiz, sənin də Rəbbin Allahdır!”**[2]

O ﷺ, həmçinin, hər gün səhər açıldıqda və axşam düşdükdə dua edib deyərdi:

((اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَافِيَةَ فِي الدُّنْيَا وَالآخِرَةِ. اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَفْوَ وَالْعَافِيَةَ فِي دِينِي وَدُنْيَايَ، وَأَهْلِي وَمَالِي. اللَّهُمَّ اسْتُرْ عَوْرَاتِي، وَآمِنْ رَوْعَاتِي. اللَّهُمَّ احْفَظْنِي مِنْ بَيْنِ يَدَيَّ وَمِنْ خَلْفِي، وَعَنْ يَمِينِي وَعَنْ شِمَالِي، وَمِنْ فَوْقِي، وَأَعُوذُ بِعَظَمَتِكَ مِنْ أَنْ أُغْتَالَ مِنْ تَحْتِي))

**“Allahım, dünyada və axirətdə Səndən salamatlıq diləyirəm! Allahım, dinim, dünyam, ailəm və malım üçün Səndən bağışlanma və salamatlıq diləyirəm! Allahım, eyiblərimi ört**

---

[1] “İbrahim” surəsi, 35.

[2] “Sunən ət-Tirmizi”, 5/504; “Sunən əd-Darimi”, 1/336; “Səhih ət-Tirmizi”, 3/157.

**və qorxduqlarımdan məni xatircəm et! Allahım, məni önümdən, arxamdan, sağımdan, solumdan və başımın üstündən qoru. Ayağımın altının qazılmasından Sənin əzəmətinə sığınıram!"**[1]

**– Əmin-amanlığı təmin edən əsasların dördüncüsü fitnə baş qaldırdıqda həyat təcrübəsi olan ağıllı insanlara müraciət etməkdir.**

Bu xüsusda Quranda belə buyurulur: **"Onlara əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə, dərhal onu yayırlar. Halbuki, bunu Peyğəmbərə və özlərindən olan əmr sahiblərinə çatdırsaydılar, içərilərindən *o xəbərin* mahiyyətinə varan kəslər onu bilərdilər."**[2]

Hədisdə isə Peyğəmbər ﷺ belə demişdir: **"Kiçiyimizə rəhm etməyən, böyüyümüzə ehtiram göstərməyən və alimimizin haqqını bilməyən kimsə mənim ümmətimdən deyildir."**[3]**;**

**"Bərəkət, böyüklərinizin yanındadır."**[4]

Demək, əmin-amanlığı qorumaq üçün həyat təcrübəsi olan ağıllı insanlarla, xüsusilə də əmr sahibləri və alimlərlə məsləhətləşmək vacibdir.

**– Əmin-amanlığı təmin edən əsasların beşincisi camaatdan ayrılmamaqdır.**

Uca Allah Quranda müsəlmanlara: **"Allahın ipindən möhkəm tutun və firqə-firqə olmayın!"**[5]– deyə əmr edir.

---

1 "Sunən Əbu Davud", 5074; "Səhih əl-Cami", 1274.

2 "ən-Nisa" surəsi, 83.

3 "Sunən Əbu Davud", 5074; "Səhih əl-Cami", 1274.

4 "Səhih İbn Hibban", 1912; "Silsilə əl-Əhadis əs-Səhihə", 1778.

5 "Ali-İmran" surəsi, 103.

Əgər müsəlmanlar Peyğəmbərin ﷺ dövründə olduğu kimi, mehriban bir camaat olsalar, Allah onları Öz rəhmətinə qovuşdurar və onlara əmin-amanlıq bəxş edər. Əks təqdirdə isə – Allah qorusun! – onlar əzaba düçar ola bilərlər. Bu xüsusda Quranda belə buyurulur: **"Qoy içinizdən xeyirə çağıran, yaxşı işləri əmr edib, pis əməlləri qadağan edən bir camaat olsun. Məhz onlar nicat tapanlardır. Özlərinə aydın dəlillər gəldikdən sonra firqələrə ayrılıb ixtilaf edənlər kimi olmayın. Məhz onlar üçün böyük bir əzab vardır."**[1]

Hədislərdə isə Peyğəmbər ﷺ bunları demişdir:

**"Camaatla birlikdə olanlar Allahın rəhmətinə qovuşar, firqələrə bölünənlər isə əzaba düçar olar."[2];**

**"Allahın əli *mömin* camaatın üzərindədir! Camaatdan ayrılan kimsənin yanında isə ancaq şeytan olar."[3];**

**"Üç xislət vardır ki, bunları özündə cəm edən möminin qəlbi əsla dönük çıxmaz: əməli səmimi-qəlbdən Allah üçün etmək, müsəlmanların rəhbərlərinə nəsihət etmək və müsəlman camaatdan ayrılmamaq."[4]**

**– Əmin-amanlığı təmin edən əsasların altıncısı faydalı elm öyrənmək və onu başqalarına öyrətməkdir.**

Məlumdur ki, bilənlərlə bilməyənlər eyni deyillər. Əgər insanlar Allah rizası üçün faydalı elm öyrənsələr və öyrəndiklərinə əməl etsələr, Allah onları haqq yola yönəldər və onlar daim əmin-amanlıq içində olarlar, üstəlik, onların hörmətini artırar. Bu xüsusda Quranda belə buyurulur: **"Allah, Onun rizasını arayan kəsləri *Quranla* əmin-amanlıq yollarına**

---

[1] "Ali-İmran" surəsi, 104-105.

[2] "Musnəd İmam Əhməd" 4/278; "Silsilə əl-Əhadis əs-Səhihə", 667.

[3] "Səhih əl-Cami əs-Səğir", 2729.

[4] "Musnəd İmam Əhməd", 5/183; "Silsilə əl-Əhadis əs-Səhihə", 404.

**yönəldər, onları Öz izni ilə zülmətlərdən nura çıxarar və düz yola yönəldər."[1];**

**"Allah sizin aranızdan iman gətirənlərin və özlərinə elm verilmiş kimsələrin dərəcələrini ucaldır."[2]**

Hədislərdə isə Peyğəmbər ﷺ bunları demişdir:

**"Ən xeyirliniz Quranı öyrənən və onu *başqalarına* öyrədəninizdir."[3];**

**"Alimlər peyğəmbərlərin varisləridir. Peyğəmbərlər özlərindən sonra nə bir dinar, nə də bir dirhəm qoyurlar. Qoyub getdikləri *miras* elmdir."[4];**

**"Elmə, yalnız onu öyrənməklə, həlimliyə də yalnız mülayim davranmaqla yiyələnmək olar. Kim xeyir əldə etməyə səy göstərərsə, ona nail olar. Habelə, kim şər əməldən çəkinərsə, ondan qorunar."[5];**

**"Sənə fayda verəcək işlərlə məşğul ol və Allahdan kömək dilə."[6];**

**"Allah kimə xeyir nəsib etmək istəsə, ona dini başa düşməyi müyəssər edər!"[7]**

Azərbaycanımızın dahi şairi Nizami Gəncəvi ؒ də gözəl şeirində belə tövsiyə edir:

*Bilik kəsb etməklə dünyanı qazan,*
*Əsmanı[8] oxu ki, məna alasan.*

---

[1] "əl-Maidə" dsurəsi, 16.
[2] "əl-Mucadilə" surəsi, 11.
[3] "Səhih əl-Buxari", 5027.
[4] "Sunən Əbu Davud", 3641; "Səhih əl-Cami", 6297.
[5] "Silsilə əl-Əhadis əs-Səhihə", 342.
[6] "Səhih Muslim", 4816.
[7] "Səhih əl-Buxari", 71.
[8] "Əsma" ərəbcədən tərcümədə isimlər, yəni Allahın adları deməkdir. Burada şair oxucuya Allahı tanımağı tövsiyə edir.

*Qaç o sözlərdən ki, mənasız, boşdur,*
*İlahi elmlər öyrənmək xoşdur.*[1]

**– Əmin-amanlığı təmin edən əsasların yeddincisi qardaşlıq münasibətini qorumaqdır.**

İslam dini müsəlmanlara aralarındakı münasibəti korlamamağı, bir-birlərinə pislik etməməyi, bir-birinin canına, malına və namusuna qəsd etməməyi buyurur: **"Möminlər, həqiqətən də qardaşdırlar. Elə isə, qardaşlarınızın arasını düzəldin və Allahdan qorxun ki, sizə rəhm edilsin."**[2]

Peyğəmbər ﷺ demişdir: **"Bir-birinizə həsəd aparmayın, bir-birinizlə rəqabət aparmayın, bir-birinizə nifrət etməyin, bir-birinizə arxa çevirməyin, biriniz digərinizin alveri üstündən alver etməsin. Ey Allahın qulları, qardaş olun! Müsəlman müsəlmanın qardaşıdır, ona zülm etməz, onuköməksiz qoymaz və onu alçaltmaz."** *Bu yerdə* Peyğəmbər ﷺ qəlbinə işarə edərək üç dəfə: **"Təqva buradadır"**– deyə təkrar etdi. Sonra *davam edib* dedi: **"Adamın şər əməl sahibi olması üçün öz müsəlman qardaşını alçaltması kifayət edər. Müsəlmanın qanı da, malı da, namusu da digər müsəlmana haramdır."**[3]

**– Əmin-amanlığı təmin edən əsasların səkkizincisi başqalarına əziyyət verməməkdir.** Bu xüsusda Quranda belə buyurulur: **"Mömin kişilərə və mömin qadınlara etmədikləri işlərə görə əziyyət verənlər, sözsüz ki, öz üzərlərinə böhtanla bərabər açıq-aydın bir günah götürmüşlər."**[4]

---

[1] "Xosrov və Şirin", səh.349.
[2] "əl-Hucurat" surəsi, 10.
[3] "Səhih Muslim", 6706.
[4] "əl-Əhzab" surəsi, 58.

Hədisdə isə Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Altı əməli** ***yerinə yetirəcəyinizə dair*** **mənə zəmanət verin, Cənnətə girəcəyinizə dair sizə zəmanət verim: danışdığınız zaman düz danışın, vəd verdikdə onu yerinə yetirin, sizə əmanət verilərsə, onu yiyəsinə qaytarın, ayıb yerlərinizi** ***zinadan*** **qoruyun, gözünüzü** ***haram buyurulanlardan*** **çəkin və bir də əlinizlə heç kəsə əziyyət verməyin."**[1];

**"İnsanlar arasında elələri vardır ki, onlar xeyir qapılarını açan və şər qapılarını bağlayan açarlardır. Xeyir qapılarının açarları əlində olan kimsələrin xoş halına! Şər qapılarının açarları əlində olan kimsələrin də vay halına!"**[2]

**– Əmin-amanlığı təmin edən əsasların doqquzuncusu cəzaları tətbiq etməkdir.** Bu xüsusda Quranda belə buyurulur: **"Ey ağıl sahibləri, qisasda sizin üçün əmin-aman həyat vardır. Bəlkə** ***bunun sayəsində Allahdan*** **qorxasınız."**[3]

Yəni cinayətkar layiqli cəzasını almalıdır ki, ölkədə əmin-amanlıq olsun. Cinayətkarın cinayətini ört-basdır etmək isə cinayətlərin artmasına, beləliklə də, yer üzündə fitnə-fəsadın yayılmasına səbəb olur. Bu da elə bir böyük günahdır ki, Uca Allah bu əməli edəni lənətləyir. İmam Əli ibn Əbu Talibin رضي الله عنه rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ belə demişdir: **"Cinayətkara sığınacaq verənə**[4] **Allah lənət eləsin!"**[5]

---

[1] "Musnəd İmam Əhməd", 5/323; "Silsilə əl-Əhadis əs-Səhihə", 1470.

[2] "Sunən İbn Macə", 237; "Silsilə əl-Əhadis əs-Səhihə", 1332.

[3] "əl-Bəqərə" surəsi, 179.

[4] Demək, cinayətkarın tərəfini saxlamaq və ona yardım etmək böyük günahlardan hesab olunur.

[5] "Səhih əl-Buxari", 2408; "Səhih Muslim", 5241.

Qeyd etmək lazımdır ki, cinayətə görə cəzanı rəhbərlər tətbiq etməlidirlər. Sıravi insanların bir kimsə haqqında özbaşına hökm çıxardıb ona cəza tətbiq etməsi İslam dininə müxalifdir – belə etmək ölkədə əmin-amanlığın pozulmasına gətirib çıxardar. Odur ki, Uca Allah və Onun peyğəmbəri ﷺ müsəlmanlara öz rəhbərlərinə itaət etməyi əmr edir. Bu xüsusda Quranda belə buyurulur: **"Ey iman gətirənlər! Allaha və Onun rəsuluna itaət edin, habelə özünüzdən olan rəhbərlərə də *şəriətə müvafiq olaraq itaət edin*!"**[1]

Hədisdə isə Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Kim mənə itaət etsə, Allaha itaət etmiş olar, kim mənə asi olsa, Allaha asi olmuş olar. Eləcə də, kim rəhbərə itaət etsə, mənə itaət etmiş olar, kim rəhbərə asi olsa, mənə asi olmuş olar."**[2]**;**

**"Allahdan qorxun, beş vaxt namazlarınızı qılın, ramazan ayının orucunu tutun, malınızın zəkatını verin və rəhbərinizə itaət edin ki, Rəbbinizin Cənnətinə daxil olasınız."**[3]

**– Əmin-amanlığı təmin edən əsasların onuncusu mövcud əmin-amanlığa şükür etməkdir.**

İnsanların bir qismi onlara ruzi-bərəkətin haradan gəldiyini bilmir və heç bilmək də istəmirlər. Digərləri isə Allahın onlara ruzi verdiyini bilir, lakin bunun əvəzində Allaha layiqincə şükür etmirlər. Bir başqaları da Allahın onlara ruzi verdiyini bilir, amma bilərəkdən Ona asi olur, Ona qarşı gedirlər. Sadaladığımız bu insanların birinci qismi cahil, ikincisi nankor, üçüncüsü isə kafir adamlardır. Mömin bəndə isə Allaha həm

---

[1] "ən-Nisa" surəsi, 59.
[2] "Səhih əl-Buxari", 2957.
[3] "Sunən ət-Tirmizi", 2/516; "Silsilə əl-Əhadis əs-Səhihə", 867.

dili ilə, həm qəlbi ilə, həm də əməli ilə şükür edir. Yəni peyğəmbərlər ﷺ kimi "la ilahə illəllah" kəlməsini dili ilə tələffüz edir, qəlbi ilə Allahın Tək İlah olduğuna etiqad edir və Allahın buyuruqlarını yerinə yetirir. Uca Allah məhz belələrinə həm bu dünyada, həm də axirətdə xeyirli-bərəkətli nemətlər bəxş edir, nankor bəndəsini isə əzaba düçar edir. Bu xüsusda Quranda belə buyurulur: **"Rəbbiniz buyurur: "Əgər şükür etsəniz, sizə *olan nemətimi* artıraram, yox əgər nankorluq etsəniz, *bilin ki,* Mənim əzabım şiddətlidir."**[1]**;**

**"Allah təhlükəsizlik və əmin-amanlıq içində olan bir məmləkəti məsəl çəkir. O diyara ruzi hər yerdən bol-bol gəlirdi. Lakin o *diyarın əhalisi* Allahın nemətlərinə nankorluq etdi, Allah da onları etdikləri əməllərə görə aclıq və qorxu libasına bürüdü."**[2]

İbrətamiz bir hədisdə isə Peyğəmbər ﷺ belə nəql edir: **"Bir zaman Uca Allah İsrail oğullarından üç nəfəri – cüzam xəstəliyinə tutulmuş birisini, keçəli və kor adamı sınağa çəkdi. Uca Allah onların yanına bir mələk göndərdi. Mələk *insan qiyafəsində əvvəlcə* cüzam xəstəliyinə tutulmuş kimsənin yanına gəlib dedi: "Sənin ən çox istədiyin şey nədir?" O dedi: "Gözəl rəng və gözəl dəri! İnsanlar artıq məndən diksinirlər". Mələk əlini onun vücuduna sürtdü və bu çirkinlik keçib getdi, onun rəngi və dərisi gözəlləşdi. Mələk soruşdu: "Sənin ən çox sevdiyin mal nədir?" O: "Dəvə"– deyə cavab verdi. Ona on aylıq boğaz dəvə verildi və mələk dua edib dedi: "*Allah* bunu sənin üçün bərəkətli etsin!"**

**Sonra mələk keçəlin yanına gəlib dedi: "Sənin ən çox istədiyin şey nədir?" O dedi: "Gözəl saçım *olsun,* bu *keçəllik***

[1] "İbrahim" surəsi, 7.
[2] "ən-Nəhl" surəsi, 112.

**məndən getsin. İnsanlar artıq məndən diksinirlər". Mələk əlini onun başına çəkdi və onun keçəlliyi keçib getdi, ona gözəl saç bəxş edildi. Mələk soruşdu: "Sənin ən çox sevdiyin mal nədir?" O: "İnəkdir"– dedi. Ona boğaz inək verildi və mələk dua edib dedi: "*Allah* bunu sənin üçün bərəkətli etsin!"**

**Sonra mələk korun yanına gəlib dedi: "Sənin ən çox istədiyin şey nədir?" O dedi: "Allah gözlərimi özümə qaytarsın və mən insanları görə bilim". Mələk əlini *onun gözlərinə sürtdü* və Allah onun gözlərini özünə qaytardı. Mələk soruşdu: "Sənin ən çox sevdiyin mal nədir?" O: "Qoyundur"– dedi. Ona balalı bir qoyun verildi *və mələk dua edib dedi*: "Allah bunu sənin üçün bərəkətli etsin!"**

**Bundan sonra o ikisinin[1] heyvanları bala verdi, üçüncüsünün də *qoyunu* balaladı. Bir müddət keçdikdən sonra birinin bir vadi dolusu dəvəsi, o birinin bir vadi dolusu mal-qarası, üçüncüsünün də bir vadi dolusu qoyunu oldu. Sonra mələk cüzam xəstəliyinə tutulmuş adamın yanına onun əvvəlki görkəmində və qiyafəsində gəlib dedi: "Mən kasıb bir adamam. Səfərdə ikən mənim bütün vəsaitim tükənib. Bu gün mən yalnız Allahın köməyi ilə, sonra da sənin köməyinlə *istəyimə* nail ola bilərəm. Sənə gözəl rəng, gözəl dəri və *bu qədər* sərvət bəxş etmiş Allah rizasına mənə bir dəvə ver, onun sayəsində səfərimi başa çatdıra bilim". O *adam cavabında ona* dedi: "Düzü, *özümün* o qədər verəcəyim var ki!" *Mələk* dedi: "Gərək ki, mən səni tanıyıram. Məgər sən həm cüzam xəstəliyinə tutulmuş, həm insanların diksindiyi, həm də kasıb bir adam deyildinmi?! Sonra da Allah sənə *istədiklərini* vermədimi?" Adam dedi: *"Bu var-dövlət***

[1] Dəvə və inək verilmiş o iki kimsənin.

**mənə ata-babalarımdan miras qalıb". Mələk dedi: "Əgər yalan danışırsansa, Allah səni əvvəlki halına qaytarsın!"**

**Sonra mələk keçəlin yanına onun əvvəlki görkəmində və qiyafəsində gəldi və ona da əvvəlkinə dediklərinin eynisini söylədi. Əvvəlki adam ona rədd cavabı verdiyi kimi, keçəl də ona yox cavabı verdi. *Onda mələk* dedi: "Əgər yalan danışırsansa, Allah səni əvvəlki halına qaytarsın!"**

**Sonra mələk korun yanına onun əvvəlki görkəmində gəlib dedi: "Mən kasıb adamam, yolda qalmışam. Səfərdə ikən mənim bütün vəsaitim tükənib. Bu gün mən ancaq Allahın köməyi ilə, sonra da sənin köməyinlə istəyimə nail ola bilərəm. Sənin gözlərini sənə qaytaran Allah rizasına mənə bir qoyun ver, onun sayəsində səfərimi başa çatdıra bilim". Adam dedi: "Doğrudur, mən kor idim, Allah gözlərimi mənə qaytardı, kasıb idim, O mənə var-dövlət nəsib etdi. Odur ki, nə qədər *qoyun* istəyirsənsə, götür. Vallahi ki, bu gün mən sənin Allah rizası üçün götürdüyün şeylərə hədd qoymayacağam". Mələk dedi: "Malını özünə saxla. Bu sizin üçün yalnız bir sınaq idi. Allah səndən razı qaldı, lakin o biri iki dostuna qəzəbi tutdu!"**[1]

Şükür mövzusunda dahi şairimiz Nizami Gəncəvinin də gözəl sözləri var:

*Mal-dövlət bol idi, millət fərəhli,*
*Fərəhlə gəlirdi hər təzə ili.*
*Bu rifahdan sonra gəldi elə gün,*
*Xalq şükür etməyi unutdu bütün.*
*Təkəbbür onları çıxartdı yoldan,*
*Çıxdı yadlarından Böyük Yaradan.*

---

[1] "Səhih əl-Buxari", 3464; "Səhih Muslim", 2964.

*Kim nemət verəni yada salmasa,*
*Şükür eləməsə, razı qalmasa,*
*Dar olar başına bu geniş cahan,*
*Onun ruzisi da çıxar qayadan.*[1]

Sonda hamımız üçün Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi dua ilə Allaha yalvarıb deyirik:

((اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ الثَّبَاتَ فِي الْأَمْرِ، وَالْعَزِيمَةَ عَلَى الرُّشْدِ، وَنَسْأَلُكَ مُوجِبَاتِ رَحْمَتِكَ، وَعَزَائِمَ مَغْفِرَتِكَ، وَنَسْأَلُكَ شُكْرَ نِعْمَتِكَ، وَحُسْنَ عِبَادَتِكَ، وَنَسْأَلُكَ قَلْباً سَلِيماً، وَلِسَاناً صَادِقاً، وَنَسْأَلُكَ مِنْ خَيْرِ مَا تَعْلَمُ، وَنَعُوذُ بِكَ مِنْ شَرِّ مَا تَعْلَمُ، وَنَسْتَغْفِرُكَ لِمَا تَعْلَمُ، إِنَّكَ أَنْتَ عَلاَّمُ الْغُيُوبِ))

**“Allahım, Səndən dində sabit qalmağımızı və doğruluğa can atmağımızı, Sənin rəhmətinə qovuşduran və məğfirətinə yetişdirən əməlləri yerinə yetirməyi, Sənin nemətlərinə şükür etməyi və Sənə gözəl şəkildə ibadət etməyi istəyirik. Habelə, Səndən salamat qəlb və düzdanışan dil diləyirik. Bildiyin hər bir xeyiri Səndən diləyir, bildiyin hər bir şərdən Sənə sığınır və bildiyin günahlarımıza görə Səndən bağışlanma diləyirik. Heç şübhəsiz ki, Sən qeyblərdə olanları Bilənsən.”**[2]

((اللَّهُمَّ بَارِكْ لَنَا فِي أَسْمَاعِنَا، وَأَبْصَارِنَا، وَقُلُوبِنَا، وَأَزْوَاجِنَا، وَذُرِّيَّاتِنَا، وَتُبْ عَلَيْنَا إِنَّكَ أَنْتَ التَّوَّابُ الرَّحِيمُ، وَاجْعَلْنَا شَاكِرِينَ لِنِعَمِكَ، مُثْنِينَ بِهَا عَلَيْكَ، قَابِلِينَ لَهَا، وَأَتِمْهَا عَلَيْنَا))

---

[1] “Yeddi gözəl”, səh.78.
[2] “Musnəd İmam Əhməd”, 4/125; “Sunən ət-Tirmizi”, 3407.

**“Allahım, bizim eşitməyimizə, bəsirətimizə, qəlbimizə, zövcələrimizə və zürriyyətimizə bərəkət ver! Bizim tövbəmizi qəbul et, həqiqətən, Sən tövbələri qəbul edənsən! Bizi, Sənin nemətlərinə daim şükür edən, onların vasitəsilə Sənə tariflər deyən, onlardan məmnun qalan kimsələrdən et və o nemətlərini bizim üçün artır!”[1]**

((رَبِّ اجْعَلْنَا لَكَ شَكَّارِينَ، لَكَ ذَكَّارِينَ، لَكَ رَهَّابِينَ، لَكَ مِطْوَاعِينَ، إِلَيْكَ مُخْبِتِينَ أَوَّاهِينَ مُنِيبِينَ))

**“Ey Rəbbim, bizi yalnız Sənə şükür edən, yalnız Səni zikr edən, yalnız Səndən qorxan, yalnız Sənə itaət edən, yalnız Sənə boyun əyən, yalnız Sənə yalvaran və yalnız Sənə üz tutan bəndələr et!”[2]**

((اللَّهُمَّ أَعِنِّي عَلَى ذِكْرِكَ، وَشُكْرِكَ، وَحُسْنِ عِبَادَتِكَ))

**“Allahım, Səni zikr etmək, Sənə şükür etmək və Sənə gözəl tərzdə ibadət etmək üçün mənə yardım et!”[3]**

---

[1] “Sunən Əbu Davud”, 969.
[2] “Sunən Əbu Davud”, 1510.
[3] “Sunən Əbu Davud”, 1522.

# MÜNDƏRİCAT

Müqəddimə ....................................................................................3
"İslam" kəlməsinin mənası ....................................................................6
Quranda vəsf edilən müsəlman ............................................................13
Allahdan əmin-amanlıq diləmək ..........................................................17
Qəlbləri birləşdirən əməllər ..................................................................21
İslam mərhəmət dinidir .........................................................................32
Muhəmməd peyğəmbərin ﷺ qeyri-müsəlmanlara olan münasibəti ..............................................................................41
İslam qardaşlığına xələl gətirən amillər ..............................................44
Əmin-amanlığı təmin etməyin əsasları ................................................54

# QEYDLƏR ÜÇÜN

# QEYDLƏR ÜÇÜN